
Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 49 (24.431)
7 dekabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Müasir Azərbaycan: güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah

## *Prezident İlham Əliyev: "Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır"*



Azərbaycan iqtisadiyyatının böyük inkişaf yoluna qədəm qoymasında əvəzsiz töhfələri olan Ümummilli Liderimiz Heydər Əliyev deyirdi ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir! Bəli, 30 ilə yaxın zaman dilimi və nəticə etibarilə, 2020-ci ilin 44 günü, 2023-cü ilin 23 saatı bu kəlamın həqiqiliyini ən bariz formada ortaya qoydu. Beləliklə də, dahi şəxsiyyətin xalqımızın aydın sabahları naminə tarixi xidmətlərindən biri kimi, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan iqtisadi inkişaf yolu ölkəmizi regionda əsl söz, nüfuz sahibinə, torpaqlarını itirən, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan respublikadan dövlət suverenliyi tam bərpa edilən qalib respublikaya çevrilməsinə səbəbiyyət yaratdı. 2003-cü ildən bəri ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu diplomatiya, daxili və xarici siyasətin nəticəsində bu gün Azərbaycan "güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası əsasında uğur pillələrində cəsarət və inamla addımlayır...

Səhifə ⇨ 3

## Naxçıvan Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında Naxçıvan Sənaye Parkı yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Naxçıvan Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir;

2.2. Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra – Agentlik) həyata keçirir.

3. Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Agentliyə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təklifləri nəzərə alınmaqla, Naxçıvan Sənaye Parkında istehsal və emal (təkrar emal) olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən etsin;

4.2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və kommunal xidmət (elektrik və istilik enerjisi, təbii qaz və su) qurumları ilə birlikdə Naxçıvan Sənaye Parkının ərazisində xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli təşkili üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə Agentliyə kömək etsin;

4.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

5.1. Naxçıvan Sənaye Parkının fəaliyyəti üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 (üç yüz on) hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 dekabr 2024-cü il*

## E.S.İsayevin Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 dekabr 2024-cü il*

# Xalqı düşünən

*(əvvəli qəzetin 30 noyabr 2024-cü il sayında)*

Ancaq fərman, sadəcə, qəzetləri məhdudlaşdırmır. Bəs kitablar haqqında necə? Bundan sonra bütün kitablar da latın qrafikası ilə çap edilməlidir. Məsələn, bizim məktəblərimizdə – orta məktəbdən başlayaraq dərsliklərin hamısı artıq latın əlifbası ilə nəşr edilib. Bu göstərir ki, bizim gəncliyimiz artıq latın əlifbasını oxumağı bilir. Yalnız latın qrafikasını bilməyən daha yaşlı insanlardır, çünki onlar kiril əlifbasında təhsil alıblar.

Ancaq mən latın qrafikalı əlifbaya keçmək üçün onları hansı müddətə qədər gözləməliyəm? XX əsrin əvvəllərində (1923) Azərbaycan bütün İslam dünyasında ərəb əlifbasından latın əlifbasına keçən birinci ölkə idi. Biz hətta bunu türklər latın əlifbasına (1928) keçəndən əvvəl etdik. Azərbaycan 1923-cü ildə sovet hakimiyyəti altında olarkən bizim istifadə etdiyimiz ərəb əlifbasını dayandırdı və latın əlifbasına keçdi. Beləliklə, bizim əlifbamız 1923-cü ildən 1939-cu ilin sonuna qədər rəsmi şəkildə latın əlifbası olub. Sonra 1940-cı ildə Stalin bütün xalqları ruslaşdırmaq məqsədilə kiril əlifbasını qəbul etdirdi.

Müxalifət deyir ki, latın əlifbasını öyrənmək üçün bizə daha bir neçə il lazımdır. Ancaq Ordu Gününə (26 iyun) həsr edilmiş tədbirdəki çıxışımda mən xalqımıza xatırlatdım ki, 1923-cü ildə yenidən bizim əlifbamız ərəb əlifbasından latın əlifbasına dəyişdirilmişdi. Beş il sonra mən məktəbdə oxuyanda latın əlifbasında təhsil aldım. Mən orta məktəbdə ərəb əlifbasını öyrənmədim. Biz o zaman yenidən latın əlifbasını öyrəndik.

Doğrudur, daha sonra mən ərəb əlifbasını öyrəndim. Ancaq sizin bildiyiniz kimi, hətta sovet dövründə onlar üç, yaxud dörd il ərzində latın qrafikasına dəyişiklik etdilər. 1939-cu ildə onlar kiril qrafikalı əlifbanı qəbul edəndə dəyişmə prosesi dəqiq olaraq iki və ya üç ilə həyata keçirildi. Və mən indi, müstəqillik dövründə insanların latın əlifbasını öyrənməsi üçün çox illər gözləməliyəm? Məhz ona görə də mən konkret qanun qəbul etdim. Bu qanuna aşağıdakı şərtlər daxildir:

1) Avqustun 1-nə qədər bütün rəsmi sənədlər hökumət idarələrinin hamısında Azərbaycan dilində olmalıdır;

2) Yalnız Azərbaycan dilində latın qrafikalı Azərbaycan əlifbası ilə yazılmalıdır.

Mənim bütün fərmanlarım və prezident dəftərxanasından xaric olan sənədlər, demək olar, uzun müddətdir ki, latın əlifbasında dərc olunmuşdur. Ancaq başqa idarələrdə onlar hələ də rus dilində yazırlar. Mən bilirəm ki, bu bir az çətindir. Ancaq mən çox təcrübəli şəxsəm və bilirəm ki, əgər problemə ciddi yanaşırsansa, rəhbər insanlara tapşırıq verəndə son müddət müəyyən edilməlidir, şəxsin üzərinə işi yerinə yetirməsi üçün müəyyən vaxta qədər öhdəlik qoyulmalıdır. Əgər vaxt çərçivəsi təyin olunmursa, insanlar səy göstərməyəcək. Məhz ona görə mən bunu etdim.

***Betti Bleyer:*** – Latın əlifbasına münasibətdə beynəlxalq təşkilatlardan nəyi rica edirsiniz? Siz Azərbaycanda işləyən xarici şirkətlərdən və səfirliklərdən nə gözləyirsiniz?

***Heydər Əliyev:*** – Eyni tələbi. Onların lövhə və reklam tabloları, rəsmi sənədləri və yazışmaları bizim xalqımızla bağlı olduğuna görə rus dilində deyil, Azərbaycan dilində olmalıdır. Vizaya görə müraciətlər, bütün məlumatlar rusca deyil, Azərbaycan dilində olmalıdır. Və latın qrafikalı Azərbaycan əlifbası ilə olmalıdır. Əgər onlar bizim ölkəmizə hörmətlə yanaşırlarsa, ölkəmizin qanunlarına da hörmət etməlidirlər.

***Betti Bleyer:*** – Əgər biz mövzunu dəyişə biləriksə, mən sizdən keçid dövründə bir rəhbər kimi sizin rolunuzla bağlı sualları soruşmaq istəyirəm. Mən yenə də sizin şəxsi perspektiviniz ilə maraqlanıram. Siz sovet və indiki müstəqillik dövründə Azərbaycana rəhbərlik edən şəxs kimi – Qərb hökumətinin bu, iki – birbirinə zidd forması arasında – keçid prosesi haqqında ən az başa düşdüyünü necə hiss edirsiniz?

***Heydər Əliyev:*** – Siz bilirsiniz ki, bu, böyük bir problemdir. Təəssüf ki, Avropada və Amerikada belə bir fikir vardı və həmin fikrin əsasında bir siyasət yürüdüldü ki, sovet ittifaqı dağılandan sonra yaranmış bütün bu müstəqil dövlətlər sovet sistemindən əl çəkdilər, Avropa və Amerika bizdən demokratiya yolu ilə getməyimizi istədi. Ancaq onlar başa düşməlidirlər ki, bu proses birdən-birə baş vermir. Demokratiya bir gündə, bir ayda, bir ildə, hətta beş il içərisində ola bilməz! Bu, Qərbin ən böyük səhvidir. Onlar bu keçid dövrünün necə böyük proses olduğunu başa düşmür.

Dünən mən Amerika səfirliyində (Müstəqillik Günü ilə bağlı tədbir, 4 iyul) nitqimdə dedim: "Siz 225 ilə çox nailiyyətlər əldə etmisiniz". Konstitusiya dövlətin təməlidir. Qaydalar müəyyən edildikdən sonra idarəetmə başladı. Ancaq mən hesab edirəm ki, Amerikanın ən böyük şansı o olmuşdur ki, Şimal-Cənub (Vətəndaş) müharibəsindən (1861-1865) sonra Amerika torpağında heç bir müharibə olmayıb.

Müqayisə edin, nəzərə alın, Avropa ərazisində nə qədər müharibə olub? Azərbaycan indi müstəqil dövlətdir, ancaq Ermənistan hələ də bizim ərazimizi (1992-ci ildən bəri) işğal altında saxlayır. Və hətta burada, Azərbaycanda hakimiyyət uğrunda bir mübarizə var. Silahlandırılan qruplar və başqa cinayətkarlar var. Belə bir vəziyyətdə Amerikadan demokratiyanı buraya gətirmək və onu burada qəbul etdirmək qeyri-mümkündür.

Təəssüf ki, amerikalı və qərbli insanlar bunu başa düşmür. Onlar fikirləşirlər ki, hər şey onların ölkələrindəki kimi olmalıdır. Ancaq bu, düzgün deyildir. Mən dəfələrlə bunu demişəm.

Sovet dövründə bizdə bir ifadə var idi: "Sosialist inqilabının ixracatı". Bunun mənası nə demək idi? İkinci Dünya müharibəsindən əvvəl yalnız bir sosialist ölkəsi var idi – SSRİ. Bütün dünyada sosializmi qurmaq Leninin ideyası idi. Sovet liderləri İkinci Dünya müharibəsindən sonra bu ideyanı həyata keçirməyə çalışdılar, ancaq onlar buna nail ola bilmədilər.

Faşizm üzərində qələbənin ardınca müstəmləkəçiliyin tədricən iflası – Asiya və Afrika ölkələri müstəqilliklərini əldə etdikdən sonra SSRİ həmin ölkələrin bəzilərinə sosialist inqilabını ixrac etməyə cəhd etdi.

Kuba tipik bir nümunədir. 1953-cü ildə Fidel Kastro Batistaya qarşı çıxanda onun fikrində sosialist olmaq ideyası yox idi. O, sadəcə, ölkəsinin idarə edildiyi ənənəvi yolu qəbul etmirdi. Fidelin sosialist-kommunist olması beş-altı il çəkdi...

Bir tərəfdən o, Rusiyanın, digər tərəfdən isə Çinin təsiri altında idi. Kimsə deyə bilər ki, o zaman sosialist inqilabı Kubaya ixrac edildi və siz Fidelin Kubasında bu gün vəziyyəti bilirsiniz.



Yaxud Anqola, Efiopiya və digər Afrika ölkələrini götürək. Onlar da sosializmi qurmağa cəhd etdilər. Ərəb ölkələrində onlar ərəb sosializmini qurmağa çalışdılar. Məsələn, Misirdə Camal Əbdül Nasser (1918-1970) ölkəni Britaniya müstəmləkəçiliyinin məngənəsindən azad etdi. SSRİ dərhal Ərəb Sosialist Partiyası adlanan partiya yaratdı. 1973-cü ildə mən Misirə getdim və həmin partiyanın liderləri ilə görüşdüm. Mən həmçinin Nasser ilə tanış oldum, o, bir dəfə buraya – Azərbaycana gəldi. Mən Ənvər Sadət (1918-1981) ilə də tanış oldum. Ancaq sosializm ərəb mentalitetinə yaramadı.

Bu ölkələrin sosializm quruluşuna keçməsi uzun vaxt çəkdi. Bu faktlar göstərir ki, siyasi sistemləri güc ilə, zorla qəbul etdirmək olmaz. Məsələn, Rusiya imperiyasının süqutundan sonra bolşeviklər sosialist inqilabları ilə hakimiyyətə gəldilər. Və onlar nə etdi? Onlar güc tətbiq etməklə hər şey etdilər. Onlar bir çox repressiyalar – cəza tədbirləri həyata keçirdilər. Nə üçün? Sosialist ideologiyasını zorla qəbul etdirmək məqsədilə. İnsanların çoxu öldü, çoxları qaçdı, çoxları sürgünə göndərildi. Lakin qalanlar isə sağ qalmaq üçün ideologiyanı qəbul etməyə məcbur edildi.

Mən anadan olanda Azərbaycan artıq sosializm sistemi ilə idarə edilirdi. Mən uşaq idim. Repressiyalar haqqında heç nəyi bilmirdim, hətta baxmayaraq ki, onlar mənim gənclik illərimdən cəmi bir neçə il əvvəl baş vermişdir. Və mən məktəbə gedəndə Leninin, Marksın və Stalinin əsərlərini öyrənməyə başladım. Bizə o zamandan əvvəl baş vermiş hadisələr haqqında heç nə deyilmədi. Mənim beynim sosializm haqqında fikirlər ilə dolduruldu. Siz başa düşürsünüzmü?

Məsələn, dünən Moskvada Dövlət Duması (Parlament) Əmək Məcəlləsi haqqında qərar qəbul etmək istədi. Onlar sosializm dövründə mövcud olmuş sistemi dəyişmək istədilər. Ancaq insanlar Duma üzvlərinə çox qəzəbləndilər. Onların Jirinovskini necə döydüklərini televiziya göstərdi. Niyə? Çünki 70 il ərzində insanlar bu sistemdə yaşamışdır və buna alışmışdır. Və onlar bu sistemdən necə xeyir götürməyə öyrənmişdilər. Bu sistemi belə tezliklə dəyişmək qeyri-mümkündür.

Azərbaycanda mən çox qısa vaxtda islahatlar həyata keçirdim. Məsələn, torpaqları kəndlilərə qaytardım. Ancaq mən bunu edəndə Rusiya və Ukrayna kimi böyük ölkələr hələ bunu edə bilməmişdilər. Nə üçün? Çünki burada, Azərbaycanda insanlar mənə inanırdılar. Mən dedim ki, "Siz bilirsiniz ki, mən 14 il ərzində burada kommunist rəhbəri olmuşam. Siyasi Büroda altı ilə yaxın işimi davam etdirmişəm. Mən bu ölkədə sosialist sisteminin proqramlarının əksəriyyətini həyata keçirdim. Ancaq mən sizə deyirəm ki, bir dəfə təcrübədən keçirdiyim o "kolxozlar" və "sovxozlar" daha yaxşı nəticələr vermirlər. Beləliklə, mən kolxozları və sovxozları ləğv edirəm və bu torpağı sizə verirəm". İnsanlar mənə inandı və indi biz nəticələri görürük.

Demokratik düşüncəli xalq olmaq bir prosesdir. Müxtəlif ölkələrdə müxtəlif vaxt çərçivəsi tələb edir. Bəzi ölkələrdə bu proses beş il çəkə bilər; başqalarında isə on, iyirmi və ya otuz il. Demokratiyanı ya güc tətbiq etməklə, ya da inqilab yolu ilə – zorla qəbul etdirmək olmaz. Demokratiya inqilabi deyil, təkamül prosesidir.

Keçən yay, mən ata Buş ilə (Əliyev Menində ata Corc Buşun yay evinə dəvət edildi) söhbət edəndə bizim hər ikimiz razılaşdıq ki, demokratiya yoluna yenicə qədəm qoyan ölkələrdə bu konsepsiya insanlara hər iki – qəbul edəcəkləri və maraqlarına xidmət edəcək belə bir yolla təqdim edilməlidir. Əgər bu cəlbedici konsepsiya deyildirsə, insanlar bunu başa düşə bilmirsə, onda hökuməti demokratiya qurmaq olmaz. Siz güclə heç nəyi edə bilməzsiniz. Zahirən deyə bilərsiniz "Bəli, bu demokratiyadır", ancaq daxildə heç bir demokratiya olmayacaq.

İndi siz deyirsiniz ki, mən həm o sistemdə, həm də bu sistemdə – hər ikisində yaşamışam. Mən hər iki sistemin müsbət tərəflərini təcrübədən keçirmişəm. Azərbaycan sovet sistemindən çox böyük xeyir götürüb. Mən burada nəhəng fabriklər, elektrik stansiyaları, yollar, körpülər, yaşayış binaları tikdim.

Hələ Moskvada Siyasi Büronun üzvü olarkən mən başa düşürdüm ki, bu sistemin vaxtı çatıb və gələcəkdə inkişaf edə bilməz. Mən bilirdim ki, sistemdə durğunluq və tədricən dağılma olacaq. Mən bunu başa düşürdüm. Və bu mənim sosializmin dəyişdiyi vaxt fikrim idi.

Məsələn, indi mən bunu açıq deyirəm, bazar iqtisadiyyatı sistemi çox əhəmiyyətli iqtisadi sistemdir. Sosialist iqtisadiyyatına əsaslanan hökumət ilə müqayisədə bazar iqtisadiyyatı daha çox xeyirlidir. Ancaq bizim insanlar bir vaxtlar hamıya eyni cür yanaşan sovet sisteminin hakimiyyəti altında 70 il yaşamış insanlardır. İndiki zamanda bəzi insanlar bazar sistemi ilə varlanıb, hələ də digərləri çox kasıb yaşayır və heç bir işi yoxdur.

Amerikada insanların çoxu kasıb yaşayırdı. İqtisadiyyat inkişaf etdiyinə görə insanların bəziləri gərgin əməyin və bacarıqlarının sayəsində varlandılar. Ancaq digər insanlar kasıb olaraq qaldılar. Dövlət varlanandan sonra onda dövlət kasıb təbəqəni dəstəkləmək və işsiz əhalini işlə təmin etmək məqsədilə yollar axtarıb tapmağa başladı.

Ancaq burada o hələ də qeyri-mümkündür. Bizə o səviyyəyə çatmaq üçün, təxminən, 20-30 il lazımdır.

Sovetlər fikirləşirdi. "Mətbuat azadlığı nəyimə lazımdır?", "Fikir azadlığı nəyimə lazımdır?" O zaman tək bir fikir var idi, Marksizm – Leninizm və hər kəs o ideologiya ilə yaşayırdı; yalnız bir partiya – Kommunist Partiyası var idi. Və Sovet İttifaqı dağılmağa başlayana qədər insanların əksəriyyəti bu cür düşünürdü.

Lakin "dəmir pərdə" düşəndən sonra insanlar dəyişməyə başladı. Ancaq əhalinin əksəriyyəti, xüsusilə kəndlər hələ də işlərinin gedişatı ilə kifayətlənirdi. Onlar yaxşı yaşayırdılar və hesab edirdilər ki, yaşayışlarını bu cür davam etdirə bilərdilər.

Dünən mən televizora baxırdım və ictimai rəy sorğusunun nəticələrini verirdilər: "Hansı daha yaxşı idi, sosializm, yoxsa kapitalizm?" İnsanların çoxu bu fikirləri deyirdi: "Mən sovet dövründə müəllim işləyirdim və əməkhaqqım 240 rubl idi. Mən çox yaxşı yaşayırdım. Bu gün mən yenə də müəlliməm, 20-25 "şirvan" (bir "şirvan" 10 000 manata bərabərdir) alıram, ancaq mən o dövrdəki kimi yaşaya bilmirəm, mən o günlərə geri qayıdıb yaşayardım".

Bunlar keçid dövrünün problemləridir. Ancaq hər kəs bunu başa düşmür. Və müxalifət vəziyyətdən öz xeyrinə sui-istifadə edir. Bir tərəfdən, onlar deyirlər ki, biz bazar iqtisadiyyatına, sahibkarlara və burjuaziya cəmiyyətinin formalaşmasına ehtiyac duyuruq; digər tərəfdən onlar soruşurlar: "Nəyə görə insanlar kasıb və işsizdir?"

Dövlətin daha güclü və varlı olması üçün bazar iqtisadiyyatının inkişaf etdirilməsinə ehtiyac duyulur. Ondan sonra dövlət kasıblara və işsizlərə kömək etməlidir. Bu dəqiqə bu qeyri-mümkündür. Biz ya sosializmə (bizim üçün artıq mümkün deyildir) qayıtmalı, ya da özünəməxsus çətinlikləri olan kapitalizm yolu ilə getməliyik. Vəziyyət belədir. Bunlar indiki dövrün yeganə seçimləridir.

**İngilis dilindən tərcümə etdi:**
**Süsənbər AĞAMALIYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***



# Prezident İlham ƏLİYEV:

## “Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır”

# Müasir Azərbaycan: güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah

(əvvəli 1-ci səhifədə)

Sınaqdan çıxmış təcrübə və tarixi gerçəklik göstərir ki, iqtisadiyyatı dayanıqlı, davamlı, müstəqil olmayan ölkənin siyasəti də müstəqil ola bilməz. Dünyada kifayət qədər belə nümunələr olub və bu gün də vardır. Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm tranzit mərkəzi sayılan Azərbaycanın istər MDB məkanında, regional müstəvidə, istərsə də beynəlxalq səviyyədə, Avropa miqyasında kifayət qədər strateji, etibarlı tərəfdaşlığa çevrilməsi, mühüm əməkdaşlıqlara imza atması bu baxımdan təsadüfi deyil, praqmatik yanaşma, prinsipial mövqe və ən əsası iqtisadi, siyasi müstəqilliyin təntənəsidir. Və nəticədə, bu gün “Cənub Qaz Dəhlizi” ideyası üzərində vacib addımlar atan, əməli iş ortaya qoyan respublikamız Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum, TANAP (Trans-Anadolu təbii qaz boru kəməri), TAP (Trans-Adriatik təbii qaz boru kəməri) qaz layihələri ilə dünya bazarlarında önəmli paya sahib olmaqla Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verir, Avrasiyanın enerji mənzərəsini dəyişmək iqtidarındadır. Bu xüsusda təqdirəlayiq hal ondan ibarətdir ki, Avropa, Asiya ölkələri Azərbaycandan daha çox birgə əməkdaşlığa can atan tərəf kimi özlərini göstərir, enerji hasilatını artırmaq üçün təşəbbüslər göstərir, müqavilələr təklif edirlər. 2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında “Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması da bu fikirlərimizin təsdiqidir. Azərbaycan tərəfindən bu təşəbbüslərin dəstəklənməsi ötən iki ildə əhəmiyyətli uğurların əldə olunmasına gətirib çıxarıb. Belə ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, hazırda bu miqdar 12 milyarda çatdırılıb və növbəti iki ildə bu həcm 14 milyard kubmetr, 2026-cı ildən sonra isə daha böyük miqdar hədəflənib. Əldə edilən razılaşmaya əsasən 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır. Təbii ki, tədarükün bu artım tempi və digər güclü iqtisadi amillər ölkəmizin müstəqil xarici siyasət aparmasına möhkəm zəmin yaradır.

Azərbaycan liderinin ötən ilin noyabr ayında Azərbaycanın güclü iqtisadiyyatı fonunda müstəqil xarici siyasət uğurlarının platformasına çevrilən, yaradılmasının 25-ci ildönümündə Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşündə dediyi kimi: ***“Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır. Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır... Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib”.***

Azərbaycan iqtisadiyyatının gücü, dayanıqlığı həm də onun çoxşaxəliliyindədir, yəni inkişaf istiqamətləri bir-birindən asılı olmayan sahələr üzərindəndir. Eyni zamanda da zəncirvari, balanslı inkişafın təmin olunması, bir sahədən əldə olunan gəlirin digərinə yatırılması, beləliklə, həm də sərmayə cazibədarlığının artırılmasındadır. Tarixi Zəfərdən sonra yaranan yeni reallıqların fonunda 2021-ci il fevralın 2-də təsdiq edilən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkənin inkişafında əsas götürülən 5 milli prioritetdən birincisi də məhz “dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat” müəyyənləşib. Həmin prioritetin icrası ilə əlaqədar son illərdə aparılan iqtisadi islahatlar, əlverişli biznes mühitinin formalaşdırılması yeni sənaye və istehsal sahələrinin yaradılmasına səbəb olub ki, bununla da dövlət siyasətinin əsas məqsədi sayılan neftdən asılılıq artıq tamamilə aradan qaldırılmaq üzrədir. Ötən ilin makroiqtisadi göstəriciləri də bu sahədə əhəmiyyətli irəliləyişdən xəbər verir. Belə ki, 2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya 2022-ci illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal edilib, ÜDM-in 63,1 faizi qeyri-neft-qaz sektorunun payına düşüb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2024-cü ilin yanvar-oktyabr ayları ərzində isə 103 milyard 495,8 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz artım deməkdir. ÜDM-in artımının əsas səbəbləri arasında iqtisadiyyatın qeyri-neft-qaz sektorundakı inkişafı xüsusi yer tutur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyəri 1,7 faiz, qeyri-neft-qaz sektorunda isə 6,8 faiz artıb. Beləliklə, qeyri-neft sektorunun gəlir, dəyər baxımından neft sektorunu bu dərəcədə üstələməsi və artım tempi ölkəmizin apardığı sənayeləşmənin, aqraryönümlü siyasətin uğurlu nəticələrə yol açdığını göstərir...

Ölkəmizdə modern iqtisadiyyatın formalaşdırılması istiqamətində aparılan uğurlu sənayeləşmə siyasətində sənaye parklarının yaradılması əhəmiyyəti, səmərəsi ilə seçilir. Hazırda 8 rayonu əhatə edən “Araz Vadisi İqtisadi Zonası” Sənaye parkları fəaliyyət göstərir və onlardan ikisi Ağdam, Cəbrayıl rayonlarında yerləşir ki, bu da işğaldan azad olunan ərazilərdə iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sayılan sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafına təkan verəcək. Qeyri-neft sektorunun dirçəldilməsində sənayeləşmə ilə paralel “yaşıl iqtisadiyyat”a keçid də mühüm rol oynayır. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” adlanan 5-ci prioritetin icrasının təmini, istehsalatda “yaşıl texnologiya”ların tətbiqi, Qarabağın, Şərqi Zəngəzurun və Naxçıvanın “yaşıl enerji zonası” elan edilməsi və bu istiqamətdə atılan addımlar, həmçinin son illərdə ölkəmizdə yaradılan, BMT-nin statistik məlumatına əsasən dünya üzrə məşğulluğun 70 faizini təşkil edən KOB-ların fəaliyyəti bu sahədə uğur göstəriciləri kimi vurğu gərəkdirir. Və ölkəmizin “yaşıl gündəliy”i əsasında icra olunan bu və digər layihələrin məntiqi nəticəsi olaraq rəsmi Bakının beynəlxalq mötəbər tədbir sayılan COP29-a yüksək səviyyədə ev sahibliyi etməsi, yekunda nəticəyönümlü addımların atılması, qərarların qəbulu və beləliklə də, iqlim diplomatiyasında dönüş nöqtəsinin əldə olunması Azərbaycanın müstəqillik dönəmində olduqca mühüm siyasi-iqtisadi uğuru kimi tarixə düşdü...

Azərbaycanı əsl söz, nüfuz sahibi edən uğur formulunda, inkişaf modelində vacib amillər kimi əvvəlki ikisini – güclü dövlət və güclü iqtisadiyyatı tamamlayan və bu ikisinin məntiqi nəticəsi kimi dəyərləndirilən, dövlət siyasətinin əsas məqsədi məhz əhalinin sosial rifahının təminidir. Bu istiqamətdə atılan addımlar, eyni zamanda daxili sabitliyin, firavanlığın, əmin-amanlığın bərqərar olunmasına xidmət edir. Hazırkı dünya geosiyasi mənzərəsi də göstərir ki, sabitlik olmayan yerdə ölkələr dağılır, insanlar əziyyət çəkir, fəlakətlər baş verir. Bu baxımdan təsadüfi deyildir ki, Azərbaycan beynəlxalq aləmdə sabitlik adası və paralel olaraq inkişaf məkanı kimi tanınır. Təbii ki, bunu şərtləndirən amillər sırasında ideoloji təhlükəsizliyin təmini ilə yanaşı, sosial siyasətin uğurla aparılması da dayanır. Fikrimizi qüvvətləndirmək üçün bir-iki statistik nəticəyə nəzər salaq: 2003-cü ildən bu günə kimi iqtisadiyyatın gücləndirilməsi ilə yanaşı, dövlətimizin başçısı tərəfindən imzalanan fərman və sərəncamlar 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. 2018-2023-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən, 7 milyard manatlıq 4 sosial islahat paketi icra olunub, minimum əməkhaqqı 2,7 dəfə, pensiya məbləği isə 2,5 dəfə artıb. Dövlət büdcəsinin müzakirəsi çərçivəsində verilən açıqlamalara görə, gələn il minimum əməkhaqqı və minimum pensiyanın artırılması, pensiyaların indeksləşdirilməsi proqnozlaşdırılır. Ümumilikdə, sosial paket 3 milyon insanı əhatə edəcək...

Bəli, göründüyü kimi, ölkəmizin güclənməsi, iqtisadiyyatın qüdrətlənməsi, son nəticədə, bir məqsədə – Azərbaycan vətəndaşının rifahına, sağlam yaşayışına, etibarlı gələcəyinə xidmət edir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”.***

**Nail ƏSGƏROV**

# Gözəlləşən Qarabağ – tarixi ədalətin bərpası








***Qarabağa uşaqların gülüş səsləri qayıdır***

Şanlı Vətən savaşında Azərbaycan Ordusunun rəşadəti ilə torpaqlarımız işğaldan azad olundu və ötən il suverenliyimizin bərpası təmin edildi. Bu qələbə dövlətimizin qarşısında yeni yollar, yeni üfüqlər açdı. Bütün dünya bizə qarşı olsa da, biz xalq olaraq birləşib gücümüzü və haqlı olduğumuzu bütün dünyaya nümayiş etdirdik. Və dünya bunu qəbul etməyə məcbur oldu. Qətiyyətli mövqeyə sahib olan Azərbaycan Respublikası Prezidentinin tutarlı dəlillərlə çıxışları qarşısında dayana bilməyən düşmən siyasətçiləri geri addım atdı. Antiterror əməliyyatları isə ərazimizdə başqa bir dövlətin yaranmasına yol verilməyəcəyini sübuta yetirdi. Bu xalq bir olub torpağını azad etdiyi kimi düşmənin xarabaya döndərdiyi, daşı daş üstündə qoymadığı kəndləri və şəhərləri yenidən qurub-yaratdı, cənnətə çevirməyi bacardı.

Ölkə başçısı işğaldan azad olunan ərazilərə səfər edərkən hər zaman diqqətə çatdırır ki, biz Qarabağı cənnətə döndərəcəyik, baxmayaraq ki, düşmən buraları xarabaya çevirib: ***"Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də, həmçinin, Cəbrayılda da, həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan. Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik".***

Vətən savaşının bitməsindən keçən 4 ildə Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir. Şuşanın, Laçının, Xocalının, Zəngilanın xoş sədası hər yerə yayılır...

Böyükhəcmli infrastruktur layihələri həyata keçirilir. Yollar, məktəblər, elektrik stansiyaları, xəstəxanalar, yaşayış binaları, mədəniyyət və təhsil obyektləri, turizm məkanları tikilir, saymaqla bitməyən işlər görülür. Bərpa olunan məscidlərdən azan səsi yüksəlir. Öz çıxışlarında bütün bunların sadalamaqla bitməyəcəyini deyən dövlət başçısı bildirdi ki, Qarabağın dirçəldilməsi ən mühüm vəzifələrdən biridir ki, bu sahədə mühüm işlər görülür: ***"Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır. O cümlədən böyük rəmzi məna daşıyan "İstisu" su zavodunun açılışı olmuşdur və artıq istisu yenə də bizim süfrəmizdədir. Bu, doğrudan da, həm böyük rəmzi məna daşıyır, həm də ki, tarixi ədalətin bərpasıdır".***

***Görülən işlərə qısa nəzər...***

İkinci Qarabağ müharibəsi başa çatandan bu ilin sonuna qədər Qarabağdakı quruculuq işlərinə xərclənməsi nəzərdə tutulan vəsait 19 milyard manat təşkil edib. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Keçmiş məcburi köçkünlərin məskunlaşdırılması istiqamətində genişmiqyaslı layihələrin gerçəkləşdirilməsi nəticəsində yüzlərlə ailə öz ocağına dönüb. Qarabağ və Şərqi Zəngəzura, doğma yurd yerlərinə qovuşub. İnfrastruktur layihələri sürətlə həyata keçirilib, 3 min kilometr avtomobil yolu inşa edilib. Layihələr sırasında 70 kilometr uzunluğunda 45 tunel və 450 körpünün çətin relyef şəraitində inşası nəzərdə tutulur. Dəmir yolları, 2 beynəlxalq hava limanı istifadəyə verilib, enerji potensialının gücləndirilməsi diqqətdə saxlanılıb və 3 il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilib və bu proses davam etdirilir. Yaşayış sahələrinin salınması sürətlə həyata keçirilir, məktəblər, xəstəxanalar, sosial obyektlər tikilir və bütün bu tikinti-quruculuq işləri keçmiş məcburi köçkünlərin ləyaqətli şəkildə məskunlaşdırılmasına xidmət edir. Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirilir.

***Tarixi keçmişimiz özümüzə qayıdır***

İşğaldan azad edilən ərazilərimizdə infrastrukturun yenidən qurulması, yaşayış sahələrinin yaradılması ilə yanaşı, düşmənin yerləyeksan etdiyi mədəni, tarixi irsimizin bərpası da diqqətdə saxlanılır, bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən önəmli layihələr gerçəkləşdirilir. Fondun əsas prioritetlərindən biri də məhz tarixi, dini və mədəni abidələrin qorunmasıdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də rəsmi "Instagram" səhifəsindəki paylaşımında yazırdı: ***"Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır".***

Həmin tarixdən bərpa layihələrinə yerli mütəxəssislərlə yanaşı, Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən olan mütəxəssislər də Qarabağın dirçəldilməsinə öz töhfələrini verməkdədir. Şuşa şəhərində Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa, Saatlı məscidlərinin, Mehmandarovların malikanə kompleksinin bərpası Heydər Əliyev Fondunun işğaldan azad olunmuş ərazilərdə bərpa etdiyi ilk tarixi abidələr olmaqla yanaşı, fondun tarixi kimliyimizə göstərdiyi diqqət və qayğısının ən bariz nümunəsidir. Fondun işğaldan azad olunan ərazilərdəki fəaliyyəti nəticəsində son dörd ildə dağıdılmış tarixi abidələrimizin milli kimliyi özünə qayıdır. Vaxtilə düşmən vandallığı ilə xarabaya dönən məscidlərimizdən bu gün yüksələn azan səsi düşmənin qulağını kar edir. Yenidən həyata dönən Qarabağda ucalan tarixi abidələr bu yerlərin əbədi sahibi olduğumuzun sübutuna çevrilir.

***Vətən sevgisi olan yerdə***



Torpaqlarımız işğaldan azad edildikdən sonra qarşıdakı ən çətin işlərdən biri də minalı ərazilərin təmizlənməsi oldu. Xüsusən də Ağdam, Zəngilan, Füzuli, Cəbrayıl hər addımbaşı minalanmışdı. Düşmənin bizə hələ də qaytarmadığı mina xəritələrini düşünəndə təhlükənin nə qədər böyük olduğunu təsəvvür edə bilərik. Nəzərə alaq ki, 30 il bundan öncə Ağdamın və Füzulinin düşməndən azad olunan ərazilərində hələ də aşkar edilə bilməyən partlamamış mərmilər və minalar var ki, insanlar hələ də bu minaların qurbanı olur. Bu gün 4 ildir, azad edilmiş Qarabağda 3 min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, keçilməz dağları yarıb tunellər, yollar inşa etmək, təməl qazıb yaşayış binaları inşa etmək, hər addımda hansı təhlükə ilə üz-üzə olduğunu düşünə-düşünə alın tərini torpağa qatıb, palçıq qarışdırıb daşı daş üstünə qoymaq böyük cəsarət və Vətən sevgisi tələb edir. Bu gün Qarabağın cənnətə çevrilməsində əməyi olan hər bir kəs də Vətən savaşındaymış kimi döyüşür. Laçında, Ağdamda, Zəngilanda, Cəbrayılda göylərə yüksələn yaşayış binaları, xarabaya dönmüş kəndlərin arasında çiçək açan Ağalı, cənnətə çevrilən Füzuli şəhəri məhz dövlətimizin qüdrəti, xalqımızın birliyi və ürəyi Vətən eşqi ilə döyünən insanların əməyinin nəticəsidir. Gün gələcək biz Qarabağın əvvəlki günlərindən gözəl olduğunu da görəcəyik. Çünki Vətən sevgisi olan yerdə heç nə mümkünsüz deyil.

**✍ Ramiyə ƏKBƏROVA**



# “Dövlət-din münasibətləri: geosiyasi reallıqlar və qlobal çağırışlar kontekstində” mövzusunda konfrans keçirilib




*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Naxçıvan şəhərində noyabrın 30-da “Dövlət-din münasibətləri: geosiyasi reallıqlar və qlobal çağırışlar kontekstində” mövzusunda konfrans keçirilib.*

Konfrans iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, abidənin önünə əklil və gül dəstəsi qoyaraq Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyev və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu və “Global Media Group”un birgə ərsəyə gətirdiyi “Həmişə bizimləsiniz” filmi nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransı giriş sözü ilə açaraq Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə dini-mənəvi dəyərlərimizin yaşadılması sahəsində həyata keçirilmiş genişmiqyaslı tədbirlərin əhəmiyyətindən danışıb. Heydər Əliyevin böyük səyləri nəticəsində ölkəmizdə vicdan və etiqad azadlığının, dini təhlükəsizliyin təmin edildiyini, sağlam dini ideologiyanın formalaşdığını vurğulayıb. Bildirib ki, bu gün Ümummilli Liderin tövsiyələri əsas götürülərək Azərbaycanda din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə uyğun həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dini dəyərlərin, tolerantlığın və multikultural ənənələrin tənzimlənməsi istiqamətində sistemli iş aparılır. Artıq Azərbaycan dünyaya dövlət-din modelini təqdim edir, ölkəmizdəki dini dözümlülük və tolerantlıq nümunə kimi qəbul olunur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva təkcə ölkəmizdə deyil, ümumilikdə, ümumdünya bəşəri irsin mühafizəsi çərçivəsində sistemli iş aparır, dini dəyərlərə həssas münasibət göstərir, cəmiyyətdə dini həmrəyliyin yaradılmasına, qlobal səviyyədə dinlərarası dialoqun təşviq edilməsi işinə töhfə verir. Fuad Nəcəfli, eyni zamanda Naxçıvanda ölkə Prezidentinin dövlət-din münasibətlərinin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrası barədə danışıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxışında Azərbaycanın ötən müddətdə qazandığı nailiyyətləri qeyd edərək ötən əsrin 90-cı illərində Ulu Öndər



Heydər Əliyev tərəfindən məhz bu torpaqlarda – qədim Naxçıvanda başlanan yolu Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyini bildirib. Qeyd edib ki, qələbələrimizə təminat yaradan ən böyük amillərdən biri milli birliyimizdir.

Respublikamızda dövlət-din münasibətlərinin mükəmməl modellərindən birinin yaranmasında cəmiyyətimizdəki dinlərarası harmoniya, birgəyaşayış mühiti mühüm rol oynayıb.

Ramin Məmmədov Azərbaycanın dövlət-din münasibətləri sisteminin bir neçə vacib sütuna əsaslandığını deyib. Modern dünyəvi dövlətin, ənənələrə sadiqliyin və gələcəyə dair aydın, konkret baxışların mövcudluğunun əhəmiyyətinə toxunub. Vurğulayıb ki, dövlətin funksiyası yalnız vətəndaşlarının sosial-iqtisadi rifahını, hüquq və təhlükəsizliyini təmin etməkdən ibarət deyil. O həm də hər bir xalqın malik olduğu milli-mənəvi dəyərlər sistemini müdafiə mexanizmlərini yaradır və din bu sistemin bir hissəsidir. Xalqımızın təfəkküründə, tarixi yaddaşında başqalarına dözümsüzlük kimi bir anlayış yoxdur. Etnik və dini müxtəliflik ayırıcı xətt deyil, birləşdirici, qarşılıqlı dialoqu təşviq edən amildir. Güclü dövlət həm də belə ehtimalları vaxtında aşkara çıxarmaq, proqnozlaşdırmaq, zəruri tədbirlər görmək üçün vacibdir.

Tədbirin aktual mövzuya həsr olunduğunu deyən komitə sədri söyləyib ki, xüsusilə indiki geosiyasi reallıqlar qarşımızda duran vəzifələri daha dərindən təhlil etməyə sövq edir. Azərbaycanın son illərdə əldə etdiyi tarixi qələbələr bir çox siyasi dairələri narahat edir.

Konfransın əsas missiyası da tarixi nailiyyətimiz olan dövlət-din münasibətləri modelini qorumağa və daha da möhkəmləndirməyə imkan verən ideya və təkliflərin öyrənilməsindən ibarətdir.

Konfransın Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu bildirən Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa muxtar respublikanın strateji cəhətdən mövqeyindən danışıb. Azərbaycanın dövlət-din münasibətlərinin özünəməxsus quruluşa malik olduğunu bildirən Fazil Mustafa Azərbaycan vətəndaşlarının vicdan azadlığı hüququnun ölkə qanunvericiliyində öz əksini tapdığını deyib. Dövlətin dinə qayğısından bəhs edən millət vəkili azad olunmuş ərazilərdə dini abidələrin abadlaşdırılması prosesini xüsusilə qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Bəxtiyar Nəcəfov dövlət başçısı İlham Əliyevin müdrik siyasəti nəticəsində milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişafı istiqamətində qurulmuş siyasi ənənənin dinamikasının artdığını vurğulayıb. Respublikanın müxtəlif regionlarında inşa və təmir-bərpa edilən məscid-ziyarətgah kompleksləri, kilsələr, sinaqoqların, söylədiklərinə əyani sübut olduğunu diqqətə çatdıran Bəxtiyar Nəcəfov ölkə Prezidentinin işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərini daim diqqətdə saxladığını, hər səfərində milli-mənəvi irsimiz olan abidələrin bərpası, təmiri işləri ilə yaxından maraqlandığını vurğulayıb.

Konfrans işini “Dövlət-din münasibətləri: ideoloji təhlükəsizlik müstəvisində” və “Milli-mənəvi dəyərlərə qayıdış: ənənə və müasirlik” mövzusunda panellərlə davam etdirib.

## Naxçıvanda “Araz”ın yeni mağazası istifadəyə verilib



“Araz” supermarketlər şəbəkəsinin Naxçıvan mağazası fəaliyyətə başlayıb. Noyabrın 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhərinin Nəsrəddin Tusi küçəsində istifadəyə verilən yeni supermarketlə tanış olub.

“Veysəloğlu” Şirkətlər Qrupunun baş icraçı direktoru Aydın Talıbov bildirib ki, 30 illiyini qeyd edən “Veysəloğlu” Şirkətlər Qrupu Naxçıvanda “Araz” və “OBA” marketlər şəbəkələrinin 13 mağazasını istifadəyə verib. Bununla da Naxçıvanda 150 yeni iş yeri açılıb.

Yeni istifadəyə verilən “Araz” supermarketində müasir alış-veriş standartları və keyfiyyətli xidmət şəraiti yaradılıb. Burada yerli fermerlərin istehsal etdikləri məhsulların satışına da üstünlük verilir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək təbriklərini çatdırıb.

## Dövlət Proqramı çərçivəsində yerli əhəmiyyətli avtomobil yolları əsaslı təmir olunur



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinin, Culfa şəhərdaxili və Darıdağ Arsenli Su Müalicə Mərkəzinin avtomobil yolları əsaslı təmir edilib.

Noyabrın 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yollarda aparılan əsaslı təmir işləri ilə tanış olub.

“Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin İdarə Heyətinin sədri Bəhruz Əsgərov məlumat verib ki, 13,9 kilometr uzunluğu olan Əshabi-kəhf yolunun köhnə asfalt-beton örtüyü sökülüb, yol əsasına torpaq və qum-çınqıl materialı verilərək bərkidilib, yol yatağı genişləndirilərək üçqat asfalt örtüyü salınıb. Yolun torpaq hissəsinin eni 11, asfalt hissəsinin eni isə 7,4 metrdir. Avtomobil yolunda 80 müvafiq yol nişanı və 600 işıq əksetdirici siqnal dirəkləri quraşdırılıb.

Culfa şəhərinin mərkəzi avtomobil yolu ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki,7,8 kilometr uzunluğunda mərkəzi avtomobil yollarına ikiqat asfalt örtüyü salınıb. 7-9 metr enində asfaltlanan yolda 52 müvafiq nişan quraşdırılıb, təhlükəsiz və rahat hərəkət təmin edilib.

Culfa şəhər sakinləri yollarda yaradılan müasir şəraitə görə dövlətimizə minnətdarlıq ediblər.

Darıdağ Arsenli Su Müalicə Mərkəzinə gedən avtomobil yoluna baxış zamanı məlumat verilib ki, yolun əsası bərkidilib, 3,5 kilometr məsafədə üçqat asfalt örtüyü salınıb. Yolun torpaq hissəsinin eni 10, asfalt hissəsinin eni isə 8 metrdir. Müvafiq yerlərdə sürət həddini nizamlamaq, təhlükəsiz hərəkəti təmin etmək üçün 52 yol nişanı və 156 işıq əksetdirici siqnal dirəkləri quraşdırılıb.



## Səlahiyyətli nümayəndə Ordubadda sakinlərlə görüşüb



Dekabrın 2-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayonunda olub, sakinlərlə görüşüb.

Görüşdən əvvəl səlahiyyətli nümayəndə Ümummilli Liderimiz Heydər Əliyevin Ordubad şəhərində ucalan abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıb.

Sonra vətəndaşları, o cümlədən şəhid ailəsi üzvünü qəbul edən səlahiyyətli nümayəndə onların hər biri ilə fərdi söhbət aparıb, problem və təkliflərini dinləyib. Müraciətlər protokollaşdırılaraq həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi bildirilib.

# Naxçıvanda “Dövlət-biznes dialoq platforması və gələcək perspektivlər” mövzusunda tədbir keçirilib

Dekabrın 6-da Naxçıvan şəhərində “Dövlət-biznes dialoq platforması və gələcək perspektivlər” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

“Naxçıvan Palace”da davam etdirilən tədbirdə Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf, biznes, investisiya mühiti, sahibkarlığın, özəl sektorun iqtisadi inkişafda rolu müzakirə edilib.






Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Naxçıvan Sənaye Parkının yaradılması haqqında Fərmanın imzalandığını xüsusi vurğulayaraq buna görə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlığını bildirib. Samir Seyidəhmədli tədbirin dövlət-biznes dialoqunun gücləndirilməsi baxımından əhəmiyyətinə toxunaraq qeyd edib ki, bu sahədə aparılan islahatlar iqtisadiyyatın davamlı və dayanıqlı olmasını təmin edir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” da bu məqsədə xidmət edir. Proqramda iqtisadiyyatın diversifikasiyası, kiçik və orta sahibkarlığın dəstəklənməsi, sahibkarlığın inkişafı və hüquqlarının qorunması kimi mühüm hədəflər müəyyənləşdirilib. Dövlət qurumları ilə biznes subyektləri arasında əlaqələrin gücləndirilməsində müasir texnologiyaların və rəqəmsal mühitin tətbiqinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayan səlahiyyətli nümayəndənin müavini tədbirin işinə uğurlar arzulayıb.



Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov cari ilin 11 ayında Naxçıvan Muxtar Respublikasında faktiki vergi daxilolmalarının ilk dəfə olaraq 200 milyon manatı ötdüyünü bildirib. Bu göstərici müəyyən olunan proqnoz məbləğindən 44,4 milyon manat və ya 28 faiz çoxdur. Nazir müavini qeyd edib ki, 2024-cü ilin 11 ayında vergi daxilolmaları 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 52,4 milyon manat və ya 34,9 faiz, 2022-ci illə müqayisədə isə 86,5 milyon manat və ya 74,4 faiz artıb. Bununla yanaşı, 2024-cü ilin 11 ayında məcburi dövlət sosial sığorta daxilolmaları 8,1 faiz, işsizlik sığortası fonduna daxilolmalar 11 faiz, icbari tibbi sığorta daxilolmaları isə 16,7 faiz artıb. Aktiv vergiödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 37,9 faiz artaraq 21 374-ə çatıb. 1 yanvar 2023-cü illə müqayisədə isə aktiv vergiödəyicilərinin sayı 68,2 faiz, qeydiyyatda olan obyektlərin sayı 20,1 faiz, ƏDV ödəyicilərinin sayı 84,2 faiz, qeydiyyatda olan Online NKA-ların sayı 70,4 dəfə, aktiv POS-terminalların sayı isə 4,7 dəfə artıb.

Abbas İsmayılovun sözlərinə görə, dövlət əmlakının idarə olunmasında da müsbət nəticələr əldə olunub. Yeni bağlanmış icarə müqavilələrinin sayı 44 faiz azalsa da, icarədən büdcəyə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,4 faiz artıb. Özəlləşdirmədən daxilolmalar 39,5 faiz artaraq 2,6 milyon manat təşkil edib, muxtar respublika büdcəsinə və xüsusi vəsait hesabına daxilolmalar isə 40 faiz artıb. Bundan başqa, cari ilin 11 ayında 16,6 milyon manat güzəştli kreditin geri qaytarılması təmin olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfə çoxdur. Problemli kreditin geri qaytarılması isə 10,5 milyon manat təşkil edib və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 14 dəfə artıb.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Siyasəti Baş İdarəsinin rəisi Nicat İmanovun sözlərinə görə, Naxçıvan Muxtar Respublikası üçün xüsusi vergi güzəştləri paketi hazırlanıb. Bu paket muxtar respublikada qeydiyyata alınan və orada fəaliyyət göstərən sahibkarlıq subyektlərinə şamil olunacaq. N.İmanov bildirib ki, biznes subyektlərinin vergi yükünün azaldılması, irihəcmli vergi güzəştlərinin verilməsi, real sektorun vergi dərəcələrinin sıfırlanması, 10 il müddətinə vergidən azad edilməsi təşəbbüsləri vardır. Bütövlükdə, əsas məqsəd Naxçıvan Muxtar Respublikasının mövcud və sonradan yaranacaq vergiödəyicilərinə vergi güzəştləri verməklə onlar üçün əlverişli biznes mühitini təmin etməkdir. O, layihənin Nazirlər Kabinetinə təqdim olunduğunu və gələn ildən qüvvəyə minəcəyini qeyd edib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Naxçıvanda iqtisadiyyatın, biznes mühitinin inkişafı ilə bağlı təşəbbüslərin artması, dövlət-özəl dialoqunun inkişafında xüsusi roluna görə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Prezidentin səlahiyyətli nümayəndəliyinə, Naxçıvan Sahibkarlar Konfederasiyasına təşəkkürünü bildirib. Yeni güzəşt paketinin Naxçıvanda sahibkarlığın, biznesin inkişafına yeni bir təkan verəcəyini vurğulayıb. Sonra sahibkarların sualları və təklifləri əsasında geniş müzakirələr keçirilib.

Qeyd edək ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Azərbaycan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən dövlət-özəl dialoq platformasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Azərbaycan Sahibkarlar Konfederasiyasının, Naxçıvan Sahibkarlar Konfederasiyasının nümayəndələri və sahibkarlar iştirak ediblər.

# Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu keçirilib

5 dekabr 2024-cü il tarixdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Elm və Təhsil Nazirliyi ilə əməkdaşlığı çərçivəsində “Ekologiya və uşaqlar” mövzusuna həsr olunmuş Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun açılış mərasimi keçirilib.




Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və uşaq hüquqlarının müdafiəsi üzrə mütəxəssislərin iştirak etdiyi forumda muxtar respublikanı “Uşaq Səfirlər Məclisi”nin üzvlərindən olan 6 uşaq təmsil edib.

Qeyd edək ki, aidiyyəti dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələrinin dəvət edildiyi tədbirdə Azərbaycanın bütün şəhər və rayonlarından olan 300 uşaq, eləcə də Türkiyə Cümhuriyyətini təmsil edən uşaqlar iştirak edib.

## Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşlarının “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında rabitə və informasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilsinlər:

Bağırova Mənzilə Məsim qızı
Haxverdiyev Əbil Hüseynəli oğlu
Həşimov Nəbi Cəbrayıl oğlu
Hüseynov Həsən Bəhrəm oğlu
Hüseynov Zülqər Şəmil oğlu
İbrahimov Hünbət İbrahim oğlu
Qaybalıyev Vidadi Əkbər oğlu
Məmmədov Rasim Mikail oğlu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 5 dekabr 2024-cü il*

# Naxçıvan Sənaye Parkı sənaye məhsullarının xarici bazarlara ixracını stimullaşdıracaq

Müasir Azərbaycan iqtisadiyyatının gücü, dayanıqlığı onun çoxşaxəliliyindədir, yəni inkişaf istiqamətləri bir-birindən asılı olmayan sahələr üzərindədir. Eyni zamanda da zəncirvari, balanslı inkişafın təmin olunması, bir sahədən əldə olunan gəlirin səmərəli şəkildə digərinə yatırılması, beləliklə, həm də rəqabətqabiliyyətliliyin, sərmayə cazibədarlığının artırılmasındadır. Tarixi zəfərdən sonra yaranan yeni reallıqların fonunda 2021-ci il fevralın 2-də təsdiq edilən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkənin inkişafında əsas götürülən 5 milli prioritetdən birincisi də məhz “dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat” müəyyənləşib. Həmin prioritetin icrası ilə əlaqədar son illərdə aparılan iqtisadi islahatlar, əlverişli biznes mühitinin formalaşdırılması yeni sənaye və istehsal sahələrinin yaradılmasına səbəb olub ki, bununla da dövlət siyasətinin əsas məqsədi sənayenin neftdən asılılıq artıq tamamilə aradan qaldırılmaq üzrədir. Ötən ilin makroiqtisadi göstəriciləri də bu sahədə əhəmiyyətli irəliləyişdən xəbər verir. Belə ki, 2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya 2022-ci illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal edilib, ÜDM-in 63,1 faizi qeyri-neft-qaz sektorunun payına düşüb. 2024-cü ilin yanvar-oktyabr ayları ərzində isə 103 milyard 495,8 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz artım deməkdir. ÜDM-in artımının əsas səbəbləri arasında iqtisadiyyatın qeyri-neft-qaz sektorundakı inkişafı xüsusi yer tutur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyəri 1,7, qeyri-neft-qaz sektorunda isə 6,8 faiz artıb. Beləliklə, qeyri-neft sektorunun gəlir, dəyər baxımından neft sektorunu bu dərəcədə üstələməsi və artım tempi ölkəmizdə aparılan sənayeləşmənin, aqraryönümlü siyasətin uğurlu nəticələrə yol açdığını göstərir...

Ölkəmizdə modern iqtisadiyyatın formalaşdırılması istiqamətində reallaşdırılan uğurlu sənayeləşmə siyasətində sənaye parklarının yaradılması əhəmiyyəti, səmərəsi ilə seçilir. Hazırda 8 rayonu əhatə edən “Araz Vadisi İqtisadi Zonası” Sənaye parkları fəaliyyət göstərir və onlardan ikisi Ağdam, Cəbrayıl rayonlarında yerləşir ki, bu da işğaldan azad olunan ərazilərdə iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sayılan sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafına təkan verəcək.

Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq Fərmana əsasən Naxçıvanda da Sənaye Parkı yaradılacaq. Yeni park sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi funksiyasını daşıyacaq. Fərmana uyğun olaraq parkın fəaliyyəti üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Bu xüsusda onu da vurğulamaq yerinə düşər ki, Prezidentin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da muxtar respublikada Sənaye Parkının yaradılması nəzərdə tutulub. Proqramda qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasında dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, muxtar respublikada Sənaye Parkı yaradılacaq, istehsal olunan sənaye məhsullarının xarici bazarlara ixracı stimullaşdırılacaq, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət-özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək.

Əminliklə demək olar ki, Sənaye Parkının yaradılması ilə Naxçıvan Muxtar Respublikasında mövcud müəssisələrin istehsal potensialının artırılması, məhsulların həm ölkədaxili satışının dəstəklənməsi, həm də xarici bazarlara çıxışının artırılması prosesinə təkan veriləcək. Bununla yanaşı, mövcud olan təbii ehtiyatlar və xammal bazası əsasında yeni sənaye sahələrinin yaradılması imkanları da genişləndiriləcək.

**Nail ƏSGƏROV**

# “Şərq qapısı” qəzetinin məsul katibi Muxtar Məmmədovun 65 illik yubileyi qeyd olunub




“Şərq qapısı” qəzetinin məsul katibi Muxtar Məmmədovun 65 illik yubileyinə həsr olunan tədbiri giriş sözü ilə qəzetin baş redaktoru Sara Əzimova açaraq qeyd edib ki, “Şərq qapısı” qəzetinin qapıları daim gənclərin üzünə açıq olub. Burada çalışan təcrübəli jurnalistlərin əməyi sayəsində mətbuatımızın dəyərli qələm sahibləri yetişib. Qəzetçilik daha çox məsuliyyət tələb edən sahə olduğundan burada bir qələm sahibinin yetişməsi daha çox vaxt və zəhmət tələb edir. Buna baxmayaraq, Muxtar Məmmədov qəzetin məsul katibi işlədiyi dövrdə səbirlə bir çox qələm sahibinin yetişməsinə vasitəçi olub ki, indi muxtar respublikamızın bir çox dövlət orqanlarında onlar çalışırlar. Baş redaktor yubilyara xoş arzularını çatdırıb, həyatının bundan sonrakı hissəsində uğurlar diləyib, ona qəzetin fəxri fərmanını və pul mükafatını təqdim edib.

Tədbirdə çıxış edən “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli ilk qələm təcrübəsini “Şərq qapısı” qəzetində qazandığını və dəyərli qələm sahibini orada tanıdığını qeyd edib. Bildirib ki, Muxtar müəllim hər bir gənc kimi onun da öz üzərində işləməsinə, qəzetçiliyin sirlərinə bələd olmasına kömək edib. O həm vətənpərvər bir ziyalı, həm də qərəzsiz mövqeyi olan bir müəllim kimi jurnalistlərə yol göstərib. Bu gün harada olmağımızdan asılı olmayaraq, hər birimiz bu yolda bizə müəllimlik edən Muxtar Məmmədova təşəkkür etməyi özümüzə borc bilirik. Sahil Tahirli Muxtar Məmmədovu 65 illik yubileyi münasibətilə təbrik edib, ona sağlam ömür arzulayıb.



Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov qeyd edib ki, müasir dövrdə jurnalistlərin imkanları daha genişdir, amma illər öncə mətbuat sahəsində çalışanların işləri daha çətin idi. Onlar bütün hisslərini, oxucuya çatdırmaq istədiklərini bir qələm və ağ kağız vasitəsilə görürdü. Həmin dövrün yetirmələrindən olan qələm sahibi Muxtar Məmmədov keçid dövründə də qələminin mürəkkəbini daim bir amal uğruna tükədib: düzgün və qərəzsiz söz.

Tədbirdə qəzetin gənc əməkdaşları adından çıxış edən Gülcamal Tahirova Muxtar Məmmədovun gənc jurnalistlərin yetişməsindəki zəhmətindən danışıb.

Sonra Muxtar Məmmədov çıxış edərək göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Tədbirdə, həmçinin Muxtar Məmmədovun ailə üzvləri də iştirak ediblər.

Sonda Naxçıvan Televiziyasının hazırladığı Muxtar Məmmədovun əmək fəaliyyətinə həsr olunan “Hədər yaşanmayan illər” filmi təqdim edilib.

# Naxçıvan Dövlət Universitetində hüquq günləri təşkil edilib

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universiteti arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumuna uyğun olaraq Ali Məhkəmə tərəfindən universitetin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri üçün hüquq günləri təşkil olunub. Üç gün davam edən layihənin ilk günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Zamiq Əliyev “Ailə mübahisələrinin həllinin spesifik xüsusiyyətləri” barədə tələbələrə təlim keçib, təlimdə tələbələr ailə qanunvericiliyinin ümumi xarakteristikası, ailə mübahisələri üzrə işlərə tətbiq olunmalı olan qanunvericilik aktlarının dairəsi, həmin qəbildən işlərə baxılması zamanı formalaşmış vahid məhkəmə təcrübəsi barədə məlumatlandırılıb, onları maraqlandıran suallar hakim tərəfindən cavablandırılıb, mövzu ətrafında tələbələrin iştirakı ilə qarşılıqlı müzakirə aparılıb.

Növbəti gün tələbələrin təqdim olunmuş kazusla işləmələri təmin olunub. Onlar komandalar şəklində ailə mübahisəsi ilə bağlı keys üzərində işləyib kazusla bağlı sualları cavablandırıblar.

Layihənin sonuncu günü tələbələr tərəfindən işlənmiş keysin müzakirəsi baş tutub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Zamiq Əliyev tərəfindən tələbələrin iştirakı ilə kazusa təqdim olunmuş cavablar üzərində ətraflı təhlil aparılıb, onlara lazımi izahlar verilib.

Sonda layihə iştirakçılarına sertifikatlar təqdim olunub.



Qeyd edək ki, layihənin məqsədi Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin konkret hüquq sahəsi üzrə biliklərinin təkmilləşdirilməsi, onlarda nəzəri biliklərin təcrübədə istifadəsi vərdişləri yaratmaqla yanaşı, tələbələrin tənqidi düşüncə, hüquqi mühakimə kimi təməl bacarıqlarının inkişafına təkan verməkdir.

# Naxçıvan Sağlamlıq Mərkəzində ödənişsiz müayinə və əməliyyatlar həyata keçirilib



Milli Onkologiya Mərkəzinin mütəxəssisləri tərəfindən Naxçıvan Sağlamlıq Mərkəzində ödənişsiz müayinə və əməliyyatlar həyata keçirilib. “Şərq qapısı” xəbər verir ki, Naxçıvan Sağlamlıq Mərkəzində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Milli Onkologiya Mərkəzinin əməkdaşlarının təşəbbüsü ilə pulsuz onkologiya müayinələri və əməliyyatlar həyata keçirilib.

Pulsuz müayinə və əməliyyatlar əhalinin sağlamlığının qorunması, xüsusən bədxassəli şişlərin erkən diaqnostikasına diqqət yetirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu tədbir, xüsusilə onkologiya sahəsində yüksək təcrübəyə və müasir texnologiyalara malik olan həkim və mütəxəssislərin birbaşa əhalinin xidmətində olması ilə fərqlənir.

Milli Onkologiya Mərkəzinin həkim və mütəxəssisləri, Naxçıvan Sağlamlıq Mərkəzində həyata keçirilən müayinələrdə onkologiya sahəsində ən son yenilikləri və müasir müalicə metodlarını tətbiq edərək iştirakçılara ən yüksəkkeyfiyyətli tibbi xidmət göstəriblər. Həmçinin əməliyyatlar müasir cərrahi texnologiyalarla icra edilib, xəstələrin sağalmasına yönəlik ən müasir yanaşmalar tətbiq olunub.

Bu təşəbbüs Naxçıvan Muxtar Respublikasında səhiyyə xidmətinin keyfiyyətinin artırılmasına, əhalinin sağlamlıq mövzusunda daha çox məlumatlandırılmasına və onkoloji xəstəliklərlə mübarizəyə mühüm töhfə verir. Naxçıvan səhiyyəsinin inkişafı istiqamətində atılan bu cür addımlar vətəndaşların tibbi xidmətlərə daha asan və rahat şəkildə müraciət etmələrini təmin edir, eyni zamanda əhalinin sağlamlıq səviyyəsinin yüksəlməsinə xidmət edir.

# Naxçıvanda fəaliyyət göstərən könüllülər “Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumu”nda iştirak ediblər

Bakı Konqres Mərkəzində “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunan və ölkəmizdə fəaliyyət göstərən 3 mindən çox Azərbaycan Könüllüsünü bir araya toplayan “Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumu” baş tutub.

Forumda Gənclər Fondunun Naxçıvan filialının direktoru Arzu Qasımov və Naxçıvanda fəaliyyət göstərən fəal könüllülər də iştirak ediblər.

Forumun rəsmi açılış mərasimində ilk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov tərəfindən




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciəti səsləndirilib.

Daha sonra Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev forum iştirakçılarına İttifaqın 2024-cü il ərzində həyata keçirdiyi layihələr və fəaliyyəti barədə məlumat verib.

Forum çərçivəsində könüllülük fəaliyyətinin qiymətləndirilməsinə və gənclərin sosial məsuliyyətlərinin təşviqinə yönəlmiş önəmli bir addım olaraq gənclər 2024-cü il üzrə “İlin Könüllüsü” mükafatı ilə 5 nominasiya üzrə təltif olunub.

İlin könüllüləri sırasında Naxçıvanda fəaliyyət göstərən könüllülər də yer alıb.

Tədbirin sonunda forum iştirakçılarının xatirə fotosu çəkilib.

# Quş qanadlı illər ömürdən gedir,

## *yaxud qəzetə həsr olunan mənalı ömür*



O, əzəl gündən qəzetə könül verib, ürəyinin bağlı qapılarını yazının üzünə taybatay açıb. Qələm, vərəqlə baş-başa qalanda, qəlbinin dərinliklərindən süzülüb gələn misraları onlarla bölüşəndə sanki dünyaya yenidən gəlib. Bəli, “Şərq qapısı” qəzeti deyəndə siması göz önündə canlanan Muxtar Məmmədovdan xəbər verir bu sətirlər... O, 103 yaşlı qəzetdə 65 illik ömrünün 23 ilini şam kimi əridən əsl mətbuat fədaisi, həmişəyaşar mətbuatımızın salnaməsində özünəməxsus dəst-xəti olan, jurnalistikada tapdanmış yollarla getməyən kamil qələm sahibidir. Muxtar Məmmədov məsul katib kimi qəzetin məzmunlu, maraqlı, oxunaqlı dərc olunmasında, oxucuların rəğbətini qazanmasında biliyini, bacarığını, qələmini əsla əsirgəmir. Jurnalistikanın “əlifbası”ndan başlayaraq bütün qəzet janrlarında yazmağı gənc jurnalistlərə səbirlə öyrədən, onların qələmini cilalayaraq püxtələşdirən, yazılarına yaşıl işıq yandıran və çapına rəvac verən Muxtar Məmmədov hər birinin uğuruna öz övladıtək ürəkdən sevinir.

“Hər hansı mövzunu yetərincə, tamam-kamal öyrənəndən sonra qələmə alın, çalışın yazınız həm dərin, həm də oxunaqlı olsun. Oxucunu özünə cəlb etsin, maraqlandırsın, məlumatlandırsın. Jurnalistikada hər janrın öz yeri var, “quru”, maraqsız mövzu yoxdur. Əsas məsələ necə yazmaqda, jurnalistin hər bir janrda qələmini işlətmək, sözünü sərrast, təsirli demək bacarığında, istedadındadır. Siz janrın tələbləri səviyyəsində yazılan məqalələrdən nümunə götürün və cəsarətli olun. Yəni öz sözünüzü yerində deməyi, dərin, oxunaqlı, maraqlı yazmağı öyrənin, çalışın qələminiz püxtələşsin” kimi dəyərli məsləhətləri ilə gənc jurnalistlərin yoluna işıq olan Muxtar müəllimin qələm tutmağı öyrətdiyi, yetişdirdiyi neçə-neçə jurnalistlər bu gün respublikamızda müxtəlif məsul vəzifələrdə çalışırlar.

“Şərq qapısı” böyük məktəbdir və bu qəzetin yaradıcılıq məktəbini keçən böyük ziyalılar nəsli formalaşıb ki, onlardan biri də Muxtar Məmmədovdur. Muxtar Məmmədov 1959-cu il dekabr ayının 2-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Aza kəndində anadan olub. 1966-cı ildə orta təhsilini Ordubad rayonunun Aza kənd tam orta məktəbində alıb, 1976-cı ildə həmin məktəbi bitirərək Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Dil-ədəbiyyat ixtisasına daxil olub, 1976-cı ilin sentyabr ayından Ordubad rayonunun Azadkənd və Aza tam orta məktəblərində müəllim, təşkilatçı, dərs hissə müdiri vəzifələrində çalışıb. 2002-ci ildən Muxtar Məmmədovun yolunu tale “Şərq qapısı” qəzetindən salıb. Ömrünə məna qatan qəzetdə o, 2002-ci ildə müxbir, 2004-cü ildə şöbə müdiri, 2007-ci ildə məsul katib vəzifələrinə təyin olunub. 23 illik fəaliyyəti dövründə Muxtar Məmmədov kollektivimizdən öz dəstəyini əsirgəməyib. Xüsusilə gənc jurnalistlərin formalaşmasında Muxtar Məmmədovun danılmaz zəhməti var.

Müəllifin yazılarını vərəqlədikcə mətbuat fədaisinin həssaslıqla qələmə aldığı yazılardakı canlılıq, lirika, səmimiyyət onun təbiətindən xəbər verir. Müəllifin “Şam ömrünün nağılı”, “Mənim Naxçıvan dünyam”, “Azadlığı istəmədik zərrə-zərrə”, “İllər, sizdə nəyim qaldı...” kitabları, oçerkləri, hekayələri, esseləri, müsahibələri onun özünəməxsus sənət taleyinin əbədi səhifələridir. Fədakar yaradıcı əməyi ilə halal sənətkar ömrü yaşayan, yüksək ziyalı mədəniyyəti ilə nüfuz qazanan, “Şərq qapısı” qəzetinin zərgərlərindən olan Muxtar Məmmədovun kitabları mənəvi saflıq, həssaslıq və mərhəmət kimi insani keyfiyyətlərin təlqin olunduğu dəyərli mənbələrdir.

Düşünürəm ki, bu 23 ildə quş qanadlı illər bu qocaman mətbuat fədaisinə nələr vermədi ki... 23 il mətbuatda keçən ömür Muxtar Məmmədova neçə-neçə övladlar qazandırdı. Hansı ki bu gün muxtar respublikamıza öz töhfəsini verən həmin övladlar böyük qələm sahibinin zəhməti, səbri, əməyi və təcrübəsinin bəhrələridir. Bir də illər ona başucalığı verdi. Hansı ki ona başucalığı gətirən elə onun xeyirxah əməlləri idi. Deyirlər, çörəksiz yaşamaq olar, amma xeyirxah insanlarsız yaşamaq mümkün deyil. O insanın ki amalı, məqsədi, məsləyi, əqidəsi xeyirxahlığa yönəlib, çətinliyi olan hər kəsin əlindən tutub, o insan xeyirxah insandır. Bəli, nəsihətamiz fikirləri ilə gənclərin yoluna çıraq olan, əlinə qələm verib yazmağı öyrədən qəzetimizin ağsaqqalı, qocamanı Muxtar Məmmədov da belə insanlardandır. Əziz Muxtar müəllimi 65 illik yubileyi münasibətilə qəzetimizin əməkdaşları adından səmimi-qəlbdən təbrik edir, ona neçə-neçə yubileylər arzu edirik.

**Gülcamal TAHİROVA**




*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərindən olan şəhidimiz İbrahim İbrahimovun atası Etibar İbrahimovun, Naxçıvan şəhərindən olan şəhidimiz Sadiq Həsənovun atası Əli Həsənovun və Naxçıvan şəhərindən olan şəhidimiz Rahib Babayevin anası Yazgül Babayevanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## İbrahim Etibar oğlu İbrahimov

*(18.02.1992-30.10.2020)*

### Son nəfəsində də oğlum qəhrəmanlıq edib





İbrahim çox ağıllı idi. Ailəsinin, atasının, anasının, bacısının qayğısına qalan övlad olub. Həm də çox mehriban idi.

Orta məktəbi çox da yaxşı oxumurdu. Amma sakit uşaq idi İbrahim.

2010-2011-ci illərdə hərbi xidmətdə oldu. Anası hər həftə məni məcbur edirdi ki, İbrahimin yanına gedək. Hər həftə gedərdim. Ana məhəbbəti başqa olur. Oğlundan ayrı qala bilmirdi.

Onu da deyim ki, anası uzun müddət xəstə yatıb. Onun qayğısına qalar, bir dediyini iki etməzdi. Həvəsi var idi hərbiyə. Anası razı olmurdu. Razı olmurdu ki, oğlu gözündən kənarda qalsın. Sonra razılaşdıq. İbrahim sənədlərini hazırladı. Amma səhhətində problem olduğu üçün alınmadı.

2018-ci ildə İbrahimin anasını itirdik. Sonra İbrahim yenidən sənədlərini təqdim etdi. Səhhətindəki problem həll olunduğu üçün işə qəbul edildi.



Hərbçi olmamışdan əvvəl müxtəlif işlərdə çalışmışdı. Hamının yanında hörməti var idi. Yoldaşları arasında bir sözü iki olmurdu. O qədər sevirdilər onu.

Toyunda əlliyə yaxın dostu iştirak edirdi. Hələ dostlarının çoxu Bakıda olduqları üçün gələ bilməmişdilər, telefonla təbrik etmişdilər.

İbrahim döyüşlərdə böyük qəhrəmanlıqlar göstərib. O, qısa vaxt ərzində özünə orada da yaxşı dostlar tapmışdı. Döyüşə öz istəyi ilə getmişdi. Ərizəsində göstərmişdi ki, Vətən üçün döyüşə gedir. Oktyabrın 16-sı qapıdan çıxanda geri döndü. Dedi ki, ata, mənimlə fəxr edəcəksən. Altı saat icazə vermişdilər ki, ailəsi ilə görüşsün. Altı saat ərzində bütün qohumlarla vidalaşdı. 29-u oktyabrda zəng etdi. Hal-əhval tutduq. Bildirdi ki, burada su yoxdur. Torpaqla dəstəmaz alıb namaz qılıram. 30-u oktyabrda şəhid olub. Döyüş yoldaşının nəşini götürəndə vurulub. Son nəfəsində də oğlum qəhrəmanlıq edib. Allah bütün şəhidlərimizə rəhmət etsin. Vətən sağ olsun!

## Sadiq Əli oğlu Həsənov

*(14.09.1986-20.10.2020)*

### Sadiq qürur mənbəyimizdir





Sadiqin xatirələri bir kitaba sığmaz. Çox ağıllı idi Sadiq. Balaca vaxtından fərqlənirdi ətrafındakılardan. Tez-tez hərbçi olmaq istədiyini deyirdi. Arzusu idi. Hərbi liseyə daxil oldu. O vaxt ona dedim ki, mənim general balam...

Həqiqətən də, Sadiq igid, qəhrəman kimi "general balam" sözünün haqqını verdi. Hətta generaldan da üstün olan şəhidlik zirvəsinə yüksəldi... Övlad itirmiş ata kimi övladım haqqında danışmaq mənim üçün çox ağırdır. Amma buna baxmayaraq, çox qürurluyam.



Onu da deyim ki, Sadiq balaca vaxtı həm də çox nadinc olub. Heç rahat durmazdı. Çox hərəkətli idi. Buna baxmayaraq, həm də çox mehriban idi. Dərslərini yaxşı oxuyurdu. O, hərbi liseydə, həm də AHM-də səvadlı olması ilə fərqlənirdi.

Akademiyanı bitirdikdən sonra müxtəlif yerlərdə xidmət etdi. Sonuncu xidmət yeri Ordubad idi. İşdən mənə zəng vurdu. Dedi, ata, mən raport yazdım. Döyüş bölgəsinə gedirəm. Sadiq ailəli idi... İki gül balası var. Mən onlarla birlikdə Ordubadda qalırdım. Həmin gün tezdən gəldi. Lazım olan əşyalarını yığdı. Dedi ki, hərbi təyyarə gəlir. Biz onunla gedəcəyik. Cəmi altı ay Ağcabədidə xidmət etdi. Sonra Vətən müharibəsi başladı.

27 sentyabrda mən ona zəng etdim. Dedi ki, ata, narahat olma. Mən öz otağımda oturmuşam. Narahat olma. Mənə müharibə barədə heç nə demirdi. Amma qardaşına döyüşdə olduğunu demişdi. Hər gün zəng vurardı ki, necəsiniz, mən yaxşıyam. 20 oktyabrda balamın şəhid xəbərini aldıq.

Artıq sözün bitdiyi yerdir. 20 oktyabr 2020-ci ildə mənim "general balam" "şəhid balam" oldu. İndi təsəllim balamın iki gül kimi qız övladıdır. Vətən sağ olsun! Bütün şəhidlərimizin ruhu şad olsun!

## Rahib Bəxtiyar oğlu Babayev

*(19.06.1985-02.10.2020)*

### Qəhrəmanlığı gələcək nəsillərə örnəkdir







Biz Şahbuz rayon Külüs kəndində yaşayırdıq. Rahib kiçik yaşlarından oxumağa meyilli idi. Şəhərə köçəndə oğlum ikinci sinifdə oxuyurdu. Burada özü ilə bir sinifdə oxuyan uşaqlarla dostlaşdı. Oxumağına söz yox idi.

Bir müddət keçdikdən sonra dedi ki, ana, hərbçi olmaq istəyirəm. O zaman uşaqları hazırlığa qoymağa da imkanım yox idi. Nişan üzüyümü satıb Rahibi hazırlıqlara qoydum.

Hərbi liseyə qəbul oldu. Amma oranın yeməklərini yemirdi. Ancaq mənim yeməklərimi istəyirdi... Gərək hər gün günortasına bir dürmək də olsun, aparardım. Bir gün dedim ki, Rahib, bala, liseydə bişirilən yeməklər daha yaxşı olur. Orada ye yeməyini. Axı mən hər gün çatdıra bilmirəm. Heç yadımdan çıxmaz. Bir gün dedi ki, ana, plov bişir. Dedim ki, anan ölsün, ətimiz yoxdur axı. Qayıtdı ki, ana, düyünü tək bişir. Elə gözütox uşaq idi ki, heç nəyi seçməzdi, nə olsa, yeyərdi. Ana, sənin bişirdiyin hər yemək dadlı olur, – deyərdi. Elə olurdu ki, bir kartofa da gümanım gəlirdi. Onu da bişirib dürmək edərdim. Rahib soyutma kartofu elə gözəl yeyərdi ki, baxa-baxa qalardım.

Liseyi yaxşı qiymətlərlə bitirdi. İndi də belə. Amma Allahıma şükür edirəm ki, balam ad-sanla yaşadı, qəhrəman kimi şəhid oldu.

Rahibim ailəlidir. Üç övladı var. Rahib Sumqayıt şəhərində dəfn olunub. Övladları indi Bakı şəhərində yaşayırlar. Dövlət tərəfindən himayəyə götürülüblər. Hər ehtiyaclarını dövlətimiz qarşılayır. Dövlətimizin qayğısı hər an onlarladır.

Ana-atasına çox bağlı idi. O qədər mehriban idi ki...

Hər dəfə şəklinin qarşısından keçəndə dodağından öpürəm. Deyirəm ki, bala, bu dodaqların mənə bal idi. İndi o dodaqlara baxa-baxa qalmışam. Üç övladım var. Amma Rahib bir başqa idi.

Rahib məni şəhid anası etdi və getdi. Allah bütün şəhidlərimizin ruhunu şad etsin. Bu gün onlar hər birimizin qəlbində yaşayırlar.

# Ayaz İsmayılov: “Qəzaları yaradan iki əsas səbəb var: diqqətsizlik və sürət həddi”



*Naxçıvanda son dövrlərdə baş verən avtomobil qəzaları say çoxluğuna, ciddi itkilərinə görə media gündəminin əsas mövzusuna çevrilib. Təəssüf hissi ilə demək olar ki, bəzi həftələrdə qəzasız gün tapılmaz tikə, müşkül məsələ təsiri bağışlayır. Sosial şəbəkələrdə böyük maraqla izlənilən, ölümlərə, acı talelərə yol açan bu bədbəxt hadisələrin baş vermə səbəblərinə hər kəs öz baxış bucağından aydınlıq gətirməyə çalışır, sosial şəbəkələrdə bəzən, sözün həqiqi mənasında, fikir qalmaqalı yaranır, rəy davası gedir. Kimisi qəzalarda sürücü naşılığını, bir başqası işıqlandırma sistemini, yol nişanlarını, digər şəxs keçidlərdən düzgün istifadə etməyən piyadaları qınaq hədəfinə çevirir. Əlqərəz, yol-nəqliyyat hadisələrinin çoxalmasından ictimaiyyət ciddi narahatlıq keçirir, necə deyərlər, gün ötdükcə daha da güclü həyəcan təbili çalınır... Qəzaların başvermə səbəbləri, qarşısının alınması məqsədilə görülən profilaktik tədbirlər və bu istiqamətdə digər məsələlərlə bağlı suallarımızı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis mayoru Ayaz İsmayılova ünvanladıq.*



### *Yol-nəqliyyat hadisələrinin baş verməsi 99 faiz sürücüdən asılıdır*

*– Xoş gördük Ayaz müəllim. İstərdim, ilk olaraq son günlər cəmiyyətimizin bütün üzvlərini narahat edən, sosial şəbəkələrdə qızğın müzakirələr yaradan qəzaların artma səbəblərinə aydınlıq gətirək...*

– Xoş gördük, əvvəlcə bu həssas mövzuya toxunduğunuz üçün təşəkkür edirəm. Məsələ ilə bağlı onu deyə bilərəm ki, yol-nəqliyyat hadisələrinin baş verməsində əsas nüans insan amilidir. Fərqi yoxdur, sürücüdür və ya piyadadır. Nəticədə, insanların yol hərəkəti qaydalarını pozması nəticəsində nəqliyyat hadisələri baş verir. Yol-nəqliyyat hadisələri, ümumiyyətlə, bir sistemdir. Bu sistem SAYM adlanır: sürücü, avtomobil, yol, mühit. Yəni qəzada sürücünün, yolun, avtomobilin və digər amillərin rolu var. Amma hadisənin baş verməsi 99 faiz sürücüdən asılıdır. Yəni sürücülərin diqqətsizliyi, tələskənliyi yol-nəqliyyat hadisələrinə səbəb olur. Etiraf olunmalıdır ki, son vaxtlarda yol-nəqliyyat hadisələrinin sayında artım var. Bir neçə gün öncə Naxçıvan şəhərində zəncirvari qəza baş verdi. Səbəbi sadə qayda pozuntusu idi. Öndə gedən avtomobilin manevr qaydalarını pozması nəticəsində iki avtomobil toqquşmuşdu. Onlardan arxada gələn digər nəqliyyat vasitəsinin sürücüsü özünü itirmiş və hərəkət zolağında dayanmış nəqliyyat vasitələrini vurmuşdur. Ümumiyyətlə, nəqliyyat hadisələrinin hamısında iki əsas səbəb nəzərə çarpır: diqqətsizlik və sürət həddi. Naxçıvan şəhərində sürət həddi 50 kilometr-saat müəyyənləşib. Amma hadisələr zamanı avtomobillərin deformasiyasına baxanda sürətin çox olduğunu görürük. Sürət nə qədər yüksək olarsa, yol-nəqliyyat hadisələrinin baş vermə riski artır və eyni zamanda ağırlıq dərəcəsi də çoxalır. Ona görə də sürücülər sükan arxasında əyləşən zaman fikirləşməlidirlər ki, onların səhv qərarı, diqqətsizliyi özləri ilə bərabər digər insanların həyatına da ciddi təhlükə yaradır...

*– Uzun illər bu sahədə çalışan biri kimi qəzaların baş vermə ehtimalının azaldılmasını nədə görürsünüz? Bu barədə sürücülərə, piyadalara tövsiyələriniz maraqlıdır...*

– Öncə onu deyim ki, ölkəmizin digər bölgələri ilə müqayisədə Naxçıvanda yol-nəqliyyat hadisələrinin sayı əhalinin sayına nisbətdə azdır. Ancaq biz bu nisbəti daha da aşağı salmaq istəyirik. Bu məsələdə dövlət yol polisinin əməkdaşları ilə birgə əhali də öz üzərinə düşən vəzifələrə düzgün əməl etməlidir. İstər piyadalar, istərsə də sürücülər. Mən bu məsələdə ən çox iradı piyadalara bildirirəm. Çünki onlar piyada keçidlərindən istifadə etmir. Hətta tənbəllik edib qırmızı işıqdan da keçənlər vardır. Qırmızı işıq dünyanın hər yerində hərəkəti qadağan edir. Əgər bir piyada işıqforun qırmızı işığında hərəkət edirsə, polis onun təhlükəsizliyinə heç cür təminat verə bilməz. Başqa sözlə, hadisələrin qarşısını almaq üçün, ilk növbədə, özümüzü, hərəkətlərimizi tərbiyələndirməliyik. Bunu digər ənənəvi davranışlarımız kimi gündəlik həyat tərzimizə çevirib, vərdiş halına gətirməliyik. Nümunəvi yol mədəniyyəti yaratmalıyıq. Düzdür, mən bütün hərəkət iştirakçılarını ittiham edə bilmərəm. Müşahidələrim də göstərir ki, muxtar respublika ərazisində kifayət qədər yol hərəkəti qaydalarına əməl edən piyadalarımız, sürücülərimiz və digər yol hərəkəti iştirakçılarımız vardır. Ancaq bununla yanaşı, əməl etməyənlər də kifayət qədərdir. “Yol hərəkəti haqqında” qanunun 36-cı maddəsində (yol hərəkəti iştirakçılarının vəzifəsi bölməsində) deyilir ki, hər bir yol hərəkəti iştirakçısı yol hərəkəti qaydalarına əməl etməlidir. Və bunu digərlərindən də tələb etməyi bacarmalıdır. Misal olaraq, 3 dost yoldan keçir, ikisi piyada keçidindən istifadə edir, biri isə yox. Həmin iki piyada digərinə təsir etməlidir ki, gələn dəfə eyni hal təkrarlanmasın. Bununla da yol-nəqliyyat hadisələrinin də başvermə riskini azaltmış olarıq...

### *Yaxın vaxtlarda Naxçıvan şəhərində yeni işıqforlar quraşdırılacaq*

*– Düzdür, muxtar respublikanın bütün ərazilərində müxtəliftipli qəzalar baş verir. Ancaq təbii olaraq əhalinin, avtomobillərin sıx hərəkət etdiyi Naxçıvan şəhərində yol- nəqliyyat hadisələri daha çox müşahidə olunur. Bu baxımdan şəhərdə sürücülərin, piyadaların daha diqqətlə, ehtiyatla davranmalı olduqları ərazilər hansılardır?*

– Bu gün avtomobillərin, piyadaların hərəkəti baxımından Naxçıvan şəhərindəki ən sıx ərazilər Əziz Əliyev, Nizami, Cəlil Məmmədquluzadə, İstiqlal küçələri, dördyol Naxçıvan Dövlət Universiteti istiqaməti və Heydər Əliyev prospektidir. Həmin ərazilər həm zolaqların sayına, həm də şəhərin əsas ələqələndirilmiş ünvanları olduğuna görə, xüsusilə günün pik vaxtlarında, yəni səhər saat 8-9, günorta 1-2 və insanların işdən çıxdıqları 6-7 aralıqlarında diqqətli olmaq gərəkdir. Bu saatlarda yollar daha çox yüklənir. Avtomobillərin sayında sıxlıq olur. Bu sıxlığın aradan qaldırılması üçün Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə müvafiq addımlar atırıq. Yeni yol nişanları sifariş vermişik. Məlumat üçün bildirim ki, yaxın vaxtlarda şəhərdə yeni işıqforlarımız quraşdırılacaq. Bəzi işıqforlarda artıq 3 fazalı keçidlərə keçməyi planlaşdırırıq ki, bu, tıxacların qarşısını alacaq.

Əvvəllər yol-nəqliyyat hadisələri ən çox rayonlararası yollarda baş verirdisə, son zamanlar bunun əksinin şahidi oluruq. Qəzalar daha çox yaşayış məntəqələri daxilində, yol ayrıclarında müşahidə edilir. Yolayrıcları həm nizamlanan, həm də nizamlanmayandırlar. Naxçıvan şəhərində 21 yerdə, yəni 21 yolayrıcında işıqfor obyektləri fəaliyyət göstərir. Qalan yolayrıcları isə nizamlanmayan statusundadır. Yəni həmin ərazilərdə yol nişanlarına uyğun hərəkət edilməlidir...

### *Yol hərəkəti qaydalarına kiməsə və nəyəsə xatir əməl edən sürücülər vardır*

*– Dövlət Yol Polisi İdarəsi yol hərəkətinin tənzimlənməsi, yol mədəniyyətinin formalaşdırılması istiqamətində hansı profilaktik tədbirlər həyata keçirir?*

– Dövlət Yol Polisi olaraq hər ay təkcə Naxçıvan şəhərində deyil, muxtar respublikanın bütün ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədilə, o cümlədən sərxoş, nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan sürücülərə qarşı, ötmə, manevr qaydalarının pozulması, nasaz avtomobillərdən istifadəyə dair və digər səbəblərdən hərəkət təhlükəsizliyinin təmin edilməsi üçün reyd planları tərtib olunur. Hər ay mütəmadi şəkildə ekipajlar ayrılır, reydin keçirilmə tarixi əvvəlcədən müəyyən olunur. İstər rayonlararası yollarda, o cümlədən də Naxçıvan şəhərində reyd yoxlamasını həyata keçiririk. Əsas məqsədimiz yol hərəkəti təhlükəsizliyinin təmin olunmasıdır. Paradoksal haldır ki, hələ də yol hərəkəti qaydalarına kiməsə və nəyəsə xatir əməl edən sürücülərimiz vardır. Hələ də belə bir fikir formalaşır ki, yolda polis yoxdursa, biz möhkəm sürə bilərik. Yolda polis yoxdursa, sükan arxasına içkili əyləşib sürə, yaxud da qoşa xətdən dönə bilərik və sair. Bayaq vərdiş halından danışdım. Bu baxımdan istəyirik ki, cəmiyyətimiz yolda polisin olub-olmamasından asılı olmayaraq, yol hərəkəti qaydalarına ciddi əməl etsinlər.



*– Son olaraq ictimaiyyətə, yol hərəkəti iştirakçılarına qayda pozuntuları ilə qarşılaşdıqları zaman hansı addımları atmağı tövsiyə edərdiniz?*

– Yəqin ki, vətəndaşlarımızın əksəriyyəti məlumatlıdır. Bilməyənlər üçün deyim ki, Dövlət Yol Polisi İdarəsinin qaynar xətti fəaliyyət göstərir. “Whatsapp” nömrəsi də aktivdir. Hər hansı sual, şikayət yaranarsa, 060-500-09-02 nömrəsi ilə əlaqə saxlamaq olar. Qaynar xətti yaratmaqda əsas məqsədimiz sürücülər və digər hərəkət iştirakçılarına bir daha çatdırmaqdır ki, onlara təkcə yol polisi, şəhər kameraları deyil, eyni zamanda ictimaiyyət də nəzarət edir. Yolda kimsə qaydanı pozub, qoşa xətdən dönərsə, onun videosunu, fotosunu çəkib, yaxud da ətrafda kameralar varsa, yerini, saatını qaynar xəttə bildirə bilərlər. Biz də daxil olan məlumatlar əsasında həmin sürücünü qanunla inzibati qaydada məsuliyyətə cəlb edəcəyik. Və ən əsası məlumat verən şəxsin kimliyi gizlin saxlanılacaq. Bayaq da qeyd etdiyim kimi, “Yol hərəkəti haqqında” qanunun 36-cı maddəsində başqasından da bu qanuna tabe olmağı tələb etmək təsbit olunub...

Təbii ki, yol-nəqliyyat hadisələrinin qarşısını tamamilə almaq mümkün deyil. Harada ki, cəmiyyət, avtomobil var, belə hadisələrin baş verməsi labüddür və olacaq. Lakin qəza sayının minimuma endirilməsi mümkündür. Ona görə də sürücülərdən və piyadalardan tələbimiz, xahişimiz ondan ibarətdir ki, yola çıxanda təkcə özlərini fikirləşməsinlər. Düşünsünlər ki, mənim yolumu gözləyənlər, ailəm var, səhv hərəkətim digər insanların da həyatına təhlükə yaradır. Öz davranışlarımızı düzgün tərbiyə etsək, bu fikirlərlə yola çıxsaq, muxtar respublika ərazisində yol-nəqliyyat hadisələri baş verməz.

*– Suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik!*

**Nail ƏSGƏROV**

# Naxçıvanın səmaya açılan qapısında –





# Beynəlxalq Hava Limanında bir gün











***Bu hava limanı Naxçıvanın ölkə, eləcə də dünya ilə sıx bağlılığını qoruyub saxlayan vasitədir. “Şərq qapısı” komandası olaraq Naxçıvan Beynəlxalq Hava Limanının qaynar iş rejiminə malik, yorulmadan çalışan, sərnişinlərin rahatlığı, təhlükəsizliyi üçün böyük səy göstərən əməkdaşlarının bir iş gününə şahid olduq.***

...Gözləmə zalında bizi tanış səs qarşılayır: “Diqqət! Qarşılayanların nəzərinə! Azərbaycan Hava Yollarına məxsus 261 saylı reys Naxçıvan Beynəlxalq Hava Limanına eniş edir”. Bir neçə dəqiqə sonra paytaxt Bakıdan gələn muxtar respublika sakinləri, həmçinin qonaqlar hava limanının çıxış qapısına doğru irəliləyirlər.

Bununla paralel olaraq digər minik zalından Bakı şəhərinə yollanmaq üçün öz reyslərini gözləyən sərnişinlər qeydiyyatdan keçirlər. Hava limanının Aviasiya Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən sərnişinlər xüsusi yoxlamadan keçirilir, onlara təyyarədə yük yeri və salona buraxılmayan əşyalar haqqında məlumat verilir, gözləmə zalında təyyarəyə gedən qapılara doğru yol göstərilir. Hava limanı dayanacağının “ağuşuna” aldığı təyyarənin yükü boşaldılır, yeni uçuşa hazır olan sərnişinlərin baqajı yüklənilir, texniki heyət təyyarəni texniki baxışdan keçirir, təmizlik işçiləri təyyarəni təmizləyir, növbəti uçuş üçün təyyarədə səliqə yaradırlar. Təyyarə bələdçiləri, pilotlar uçuş üçün hazırlanır. Budur, təyyarə uçuşa tam hazırdır və biz təyyarədəyik.

“Tanrının yaratdığı göylərin də göyü var”, – deyən hava gəmisi pilotunun icazəsi ilə kabinə daxil oluruq. Bu bizim üçün çox önəmli bir andır. Çünki biz nəhəng gəmini heç bir dayaq olmadan bir neçə kilometr yüksəklikdə pilotlar tərəfindən buradan necə idarə edildiyinə şahid olacağıq. Sual yaranır: “Axı pilotlar bu qədər düymənin nə işə yaradığını necə yadında saxlayırlar? Təyyarə enəndə və qalxanda pilotlar həyəcan keçirirmi?” Təyyarə kapitanı Vasili Kuralex və ikinci pilot Rasif Rüstəmov suallarımızı cavabsız qoymurlar: “Uçuş başlayandan bitənədək hər şeyə cavabdehik. Ona görə də uçuş əsnasında qorxmağa, həyəcanlanmağa şansımız, hətta vaxtımız yoxdur (gülürlər). Çünki bütün ekipaj və sərnişinlərin təhlükəsizliyi bizim nəzarətimiz altındadır. Kabindəki düymələrin sayına gəlincə düymələrin sayı təyyarənin növünə görə dəyişir. Amma ümumi olaraq düymələrin sayı 400-dən artıq olur. Bu düymələrin funksiyalarını asanlıqla yadda saxlayırıq, çünki bu bizim işimizdir və işimizi sevərək edirik”. Bu anda təyyarə bələdçisi xəbərdarlıq edir və minik başlayır. Bütün ekipaja xoş və təhlükəsiz uçuşlar arzu edərək təyyarəni tərk edirik.

Hava limanlarının uğuru yalnız müasir texnologiyalardan, quraşdırılan yüksək səviyyəli infrastrukturlardan asılı deyil: bu uğurun əsas meyarını təşkil edən amillərdən biri də orada çalışan əməkdaşlardır. Naxçıvan Beynəlxalq Hava Limanının əməkdaşları fasiləsiz olaraq sərnişinlərin, eyni zamanda yüklərin təhlükəsiz daşınması üçün çalışırlar. Sərnişinlərin qeydiyyatı, onların yoxlanışı, yüklərin qəbulu və yola salınması, uçuşlar haqqında məlumatlandırma – bütün bu proseslər peşəkar, ən əsası səmimi yanaşma ilə həyata keçirilir. Onların gülərüz davranışı, nəzakəti və peşəkarlığı sərnişinlərin rahat səyahət etmələrinə bilavasitə təsir göstərir. Daha dəqiq ifadə etsək: onlar Naxçıvanın səmaya açılan qapısının qəhrəmanlarıdır.

Naxçıvan Beynəlxalq Hava Limanı yalnız səyahət üçün bir dayanacaq deyil, həm də bölgənin iqtisadi həyatının mühüm tərkib hissəsidir. Yüklərin daşınması, ticarət əlaqələrinin qurulması və turizmin inkişafı məhz bu məkanın fəaliyyəti ilə sıx bağlıdır. Bura, sadəcə, bir hava nəqliyyatı mərkəzi deyil, həm də Naxçıvanın dünyaya açılan qapısıdır. Hər uçuş yeni bir hekayənin başlanğıcı, hər eniş isə Naxçıvanın qəlbinə qayıdış deməkdir.

**Aygün RÜSTƏMOVA**








# Araz çayının çirkləndirilməsinin qarşısının alınmasında beynəlxalq hüququn rolu artırılmalıdır

Azərbaycan Respublikası qonşu Ermənistan tərəfindən bu gün də ekoloji təsirlərə məruz qalır. Bu ekoloji təhdidlərin əsasında isə Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsi xüsusilə diqqət çəkir. Təsadüfi deyil ki, artıq illərdir, Ermənistan ərazisində həm kimyəvi sənaye qalıqlarının tullantıları Araz çayına atılır, eyni zamanda "Metsamor" AES-in soyudulmasında da bu çayın suyundan istifadə edilərək çirklənmiş su sonra yenidən çaya axıdılır. Çayın bu cür çirkləndirilməsi Ermənistanın özü ilə bərabər, Araz çayının axdığı digər ölkələrin də ekologiyasını ciddi təhdid edir.

Məlumdur ki, Araz çayı öz başlanğıcını Türkiyə Respublikasının Bingöl dağlarından götürür və Naxçıvan Muxtar Respublikasının İranla, Naxçıvandan sonra isə Ermənistanla sərhədinə çevrilir, sonra Azərbaycan Respublikasının ərazisinə daxil olana qədər İranın Azərbaycan Respublikası ilə sərhədi boyunca axır və nəhayət, Xəzər dənizinə tökülmək üçün Suqovuşanda Kür çayına qoşulur. Suyu zəhərlənmiş Araz çayı, eyni zamanda töküldüyü Xəzər dənizinə də mənfi təsir edir. Beləliklə, Xəzər sahilində yerləşən ölkələrə də öz mənfi təsirini göstərir. Digər tərəfdən, Türkiyə, Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası, Ermənistan və İran respublikaları bu çaydan bəhrələnirlər və çayın ekoloji təmizliyinin mühafizəsində bu ölkələrin hər biri məsuliyyət daşıyır. Lakin təəssüflər olsun ki, bu ölkələr arasında Araz çayının mühafizəsi ilə bağlı əməkdaşlıq müqaviləsi hələ də yoxdur.

Hazırda Araz çayının suyundan 4 ölkə istifadə edir və dünyadakı su problemini nəzərə alsaq, Araz çayının çirklənməsi və bu sərhəd çayının istifadəyə yararsızlığı gələcəkdə daha kəskin vəziyyətə gətirib çıxara bilər. Bu gün mütəxəssislər də həyəcan təbili çalırlar ki, ermənilər Araz çayını ekoloji fəlakətin qurbanına çeviriblər. Araşdırmalar göstərir ki, hər il Ermənistan ərazisindən keçən 350 milyon kubmetr su kimyəvi, radioaktiv maddələrlə və ağır metallarla çirkləndirilir. Gümrüdən Sədərəyə qədər götürülmüş nümunələrə əsasən Araz çayındakı ekoloji göstəricilər dünyada təyin olunmuş normalardan dəfələrlə artıqdır. Bu çaya atılan ağır metalların, fenolların, ağır fosfor duzlarının və radioaktiv tullantıların miqdarı normalardan dəfələrlə çoxdur.

2022-ci ildə "Research Journal of Border Studies" jurnalı özünün dördüncü sayında bu məsələyə toxunaraq "İçməli suyun çirklənməsi nəticəsində sərhədyanı ərazilərdəki sakinlərinin əksəriyyətində xəstəliklərin sayı artmaqdadır" yazmışdır. Və yaxud "Xalq qəzeti"nin 17 iyul 2024-cü il tarixli sayında dərc olunmuş "Ermənistanın ekoloji terroru davam edir" adlı yazıda türkiyəli jurnalistlər həyəcan təbili çalaraq bildirirlər ki, İğdıra 16 kilometr, Naxçıvan Muxtar Respublikasına isə 50 kilometr məsafədə yerləşən "Metsamor" AES-in fəsadları sərhəd bölgələrinə yaxın ərazilərə öz mənfi təsirlərini göstərməkdə davam edir. Yazıda qeyd olunur ki, son illərdə İğdır vilayətində hamilə qadınlarda rast gəlinən bir çox xəstəliklər, eləcə də heyvanlar arasında geniş yayılmış anormal doğuş hallarının (iki və üçayaqlı doğulan heyvanlar) sayı xeyli artıb. Eyni zamanda tərəvəz və bostançılıq məhsullarında da müxtəlif xəstəliklərin geniş yayılması "Metsamor" AES tərəfindən havanın və su mənbələrinin çirklənməsinin nəticəsi kimi qəbul edilir. Atom Elektrik Stansiyasının soyutma sistemində Araz çayının suyundan istifadə olunaraq sonra yenidən həmin suyun Araza axıdılması, təbii ki, öz mənfi təsirlərini göstərməkdədir. Bütün bunlar isə nəinki yaxın bölgələrdə məhsuldarlığı dəfələrlə aşağı salır, qeyd etdiyimiz kimi, əhali arasında onkoloji xəstəliklərin artmasına da səbəb olur.

Qeyd edək ki, Ermənistandakı "Metsamor" AES 1970-ci illərdə sovetlər birliyi tərəfindən İrəvanın 36 kilometrliyindəki Metsamor məntəqəsində tikilib və vaxtilə partlamış Çernobıl Elektrik Stansiyasının modelindədir. 7 dekabr 1988-ci ildə Ermənistanda 6,8 bal gücündə zəlzələ baş verəndə "Metsamor" da zədələndi və o vaxtdan radioaktiv maddələr sızmağa başladı, lakin elektrik stansiyası cəmi 6 həftə təmirə bağlandı. Ermənistan "Metsamor" AES-in yeniləndiyini iddia etsə də, Avropa Birliyi bu elektrik stansiyasını çox təhlükəli adlandırıb və onu bağlamaq istəyir, xüsusən də bu elektrik stansiyası dünyanın ən böyük zəlzələ qırağı olan "Alpa" qırağı üzərində tikilib. Atom elektrik stansiyalarının sənaye müddəti 30 il hesab edilir, lakin "Metsamor" Atom Elektrik Stansiyası 50 ildən artıqdır ki, işləyir və etibarlı nəşrlərə görə, 2036-cı ilə qədər fəaliyyətini davam etdirməsi nəzərdə tutulur.

"Border Studies Research Paper" jurnalı ("Sərhəd Araşdırmaları") yazır ki, Ermənistanın sərhədyanı Əkərək şəhərinin şimalında və şərqində, Araz çayının yatağından 5,2 kilometr aralıda 5 mis və molibden mədəni yerləşir. Bu mədənlərdən hər il milyonlarla kubmetr zəhərli tullantılar çaya axıdılır. Nəticədə, çay suyunda kimyəvi çirkləndiricilərin və ağır metalların konsentrasiyası artır. Köhnəlmiş və qeyri-standart "Metsamor" AES-in hissələrinin istismar müddətinin bitməsi səbəbindən radioaktiv materialların Araz çayına sızması regional və beynəlxalq ekspertlər və Avropa İttifaqı tərəfindən təsdiqlənib. Bütün beynəlxalq araşdırmalar göstərir ki, Araz çayında iki növ güclü çirklənmə var. Biri köhnəlmiş "Metsamor" AES-dən sızan radioaktiv materiallardan, digəri isə ağır metallardan qaynaqlanır. Onlar, əsasən, Ermənistanın mis, qızıl və alüminium mədənlərindən və Ermənistanın sərhəd sənaye şəhərinin, yəni Əkərək (Aqarak) şəhərinin sənaye müəssisələrindən Araz çayına axır.

Ermənistanın Araz çayını çirkləndirməsi məsələsi daim bölgə dövlətləri tərəfindən gündəliyə çıxarılır. Bu məsələ Azərbaycan tərəfindən dəfələrlə beynəlxalq təşkilatların diqqətinə çatdırılsa da, indiyədək buna qarşı heç bir tədbir görülməyib. Hətta bu ilin mart ayında bizim vətəndaş cəmiyyətinin üzvləri Brüsseldə keçirilən Nüvə Enerjisi Sammitinin həmsədrlərinə də bununla bağlı məktub yazaraq stansiyanın fəaliyyətinin dayandırılması üçün Ermənistan hökuməti qarşısında məsələ qaldırmağa çağırmışdı.

Bunu da əlavə edək ki, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Monitorinq Departamentinin məlumatına əsasən Mehri, Qacaran, Qafan və Dəstəkert dağ-mədən kombinatlarının yüz min tonlarla qatı turş suları, ağır metal duzları və başqa tullantıları da Arazın qolu olan Oxçuçaya axıdılır. Ayrı-ayrı vaxtlarda suyun tərkibində misin miqdarı normadan 25-50 dəfə, fenolların miqdarı isə normadan 6-15 dəfə artıq olmuşdur. Mütəxəssislər qeyd edirlər ki, "Metsamor" AES-in fəaliyyəti nəticəsində hər sutka ərzində Araz çayına 12-16 min kubmetr radioaktiv tullantı axıdılır. Bu isə çayın suyunun Azərbaycan ərazisində həm içməli, həm də suvarma mənbəyi kimi istifadəsini təhlükə altına salır.

2021-ci ilin əvvəlində Avropa Komissiyası Ermənistanla tərəfdaşlıq sazişinin 2020-ci ildə icra olunmasına dair hesabatında qeyd edib ki, "Metsamor" AES quruluşuna görə nüvə təhlükəsizliyinə dair beynəlxalq standartlara uyğun yenidən qurula bilmədiyinə görə ən tez bir vaxtda bağlanılmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirə zamanı demişdir: ***"Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir".***

AMEA-nın Radiasiya Problemləri İnstitutunun əməkdaşları tərəfindən 2015-ci ildə beynəlxalq layihə çərçivəsində (UETM) təbii fəlakət nəticəsində daşqınlara məruz qalmış və əkin üçün istifadə olunan İmişli və Saatlı rayonunun ərazilərində yetişdirilən və əhali tərəfindən istifadə olunan kənd təsərrüfatı bitkiləri ekogenetik tədqiq olunmuşdur. Tədqiqatlar nəticəsində Araz boyu yerləşən bəzi kəndlərdə torpağın və suyun fiziki-kimyəvi analizləri aparılmışdır. Bu analizlərin nəticəsində torpaq və bəzi kənd təsərrüfatı bitkilərində çirklənmə dərəcəsi müəyyənləşdirilmişdir. Tədqiqatların aparıldığı bəzi kəndlərdə yerli əhali ilə söhbətlərdən məlum olmuşdur ki, bu kəndlərdə son illər bir çox xəstəliklərin, o cümlədən mədə-bağırsaq, ürək-damar, xərçəng və sair xəstəliklərin artması müşahidə edilir. Bu baxımdan Araz çayının suyunun həm suvarma, həm də içməli su kimi istifadə olunmasının əhalinin sağlamlığına təsirinin araşdırılması, statistik məlumatların toplanılıb analizlərinin aparılması və müvafiq mübarizə tədbirlərinin həyata keçirilməsi bu günün aktual problemi hesab oluna bilər.

Araz çayının Ermənistan tərəfindən çirklənməyə məruz qalması barədə İran İslam Respublikasında da ekoloqlar tərəfindən informasiyalar yayılmaqdadır. İran parlamentində Araz çayının Ermənistan tərəfindən çirklənməsi ilə bağlı çıxışlar olub. Həmin çıxışlarda Ərdəbil vilayətinin Muğan bölgəsində əhali arasında xərçəng xəstəliyinin artmasının səbəbinin Ermənistan ərazisində Araz çayının çirklənməyə məruz qalması göstərilir, Ermənistanın çaya radioaktiv tullantılar ataraq ekologiyaya böyük ziyan vurduğu da məruzədə qeyd edilir. Məlumdur ki, Araz çayı boyu İran əraziləri münbit torpaqlardır və burada kənd təsərrüfatı inkişaf etmişdir. Yerli fermerlər suvarma suyu kimi Araz çayından istifadə edirlər. Ermənistan tərəfindən çay suyunun toksik maddələrlə çirklənməsi məhsuldarlığın azalması ilə yanaşı, əhali arasında müxtəlif xəstəliklərin də artmasına səbəb olur. Nəzərə almaq lazımdır ki, eyni vəziyyət Azərbaycan ərazisində də mövcuddur. Bizim də İranla bütün sərhədboyu ərazilərdə əkin sahələrimiz Araz çayının suyu ilə suvarılır.

Azərbaycan Respublikasının 14 mart 2000-ci il tarixdə qoşulduğu "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi üzrə Konvensiya"da (Helsinkidə 17 mart 1992-ci ildə icra edilmişdir) qeyd olunur ki, bu konvensiyanın tərəfləri sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsini təxirəsalınmaz və vacib vəzifə hesab edir.

Konvensiyanın digər müddəalarında da tərəflərin bununla bağlı məsuliyyəti, ortaya çıxan fəsadların aradan qaldırılması üçün birgə fəaliyyətin göstərilməsi yollarından bəhs edilir. Bütün bunları nəzərə alaraq bu gün regionumuz üçün böyük təhlükə ocağının istismar müddətinin uzadılmasına etiraz edərək region dövlətlərini, xalqlarını, beynəlxalq təşkilatları, dünya dövlətlərini gələcəkdə baş verə biləcək ağır faciənin qarşısını almaq üçün indidən vahid və rasional mövqe və qətiyyət nümayiş etdirməyə çağırırıq.

Sonda bunu da qeyd edək ki, Azərbaycan Respublikası 2006-cı il tarixdə "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına qoşulub. Arazın çirklənməsindən ən böyük zərəri Azərbaycan Respublikası, qonşu İran İslam Respublikası və Xəzər dənizi hövzəsi dövlətləri görür. Düşünürük ki, Araz çayını xilas etmək üçün çayın keçdiyi ölkələr və Xəzər dənizi hövzəsi dövlətləri Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Departamenti və Ümumdünya Səhiyyə Təşkilatının nəzarəti altında "Beynəlxalq Araz Konvensiyası" hazırlamaları daha məqsədəuyğun olardı. Bu həm də zamanın tələbidir.

Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin dediyi kimi: *"Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır".*

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, Prokurorluğun fəxri işçisi***

# Ordubadlı Dürrü nənənin təndiri



Azərbaycanda çörək and yeri, etibarlılıq, güvənlik qaynağı sayılıb. Qonaq duz-çöräklə qarşılanıb. Elə buna görə də ən həlledici anlarda, səadət arzulayanda, etibar andı içəndə, "And olsun kəsdiyimiz çörəyə", "Ağ günlü, ağ ruvalı olasan", – deyirlər. Yaşam uğrunda mübarizə "bir parça çörək qazanmaq" ifadəsinə gəlib çıxıb. "Çörək bol olanda torpaq şərəfli, Vətən şöhrətli olar", – deyiblər. Qonaqpərvərliyi ilə seçilən diyarımızda hansı qapını döysək, süfrəsindəki çörəyi Allah qonağından əsirgəməz.

Ulu Naxçıvanın bərəkətli torpaqlarında yetişən sarı kəhrəbanın unundan təndir çörəyinin necə hazırlandığını Ordubad rayonunda qonaq olduğumuz zaman əndəmicli Dürrü nənədən öyrənirik. O, öncə təndirqoyma adətlərindən danışır: "Təndir qoymaq, düzəltmək üçün palçıq hazırlanacaq torpaq təmiz hesab edilən yerdən götürülməli, təndir qoyan insan mütləq paklanmalıdır. Təndir hazırlanıb başa çatdıqdan sonra bərəkətli və arxalı olsun, yəni istiliyi çox saxlasın deyə onun badına ilk çörək yapılmadan öncə əvvəlcədən hazırlanmış heyvan ciyəri yapıb, bişirmək lazımdır. Son illər hamımız şahidlik edirik ki, artıq təkcə kəndlərdə deyil, şəhərlərdə də həyət evlərində yaşayan bir çox ailə həyətinə təndir alıb qoyur. Yerüstü təndirləri daşımaq asan olduğundan insanlar daha çox yerüstü təndirlərə üstünlük verirlər".

Nənə deyir ki, toy adətlərində də çörəkbişirmə mərasimi mövcuddur. Və bu adət daha çox Naxçıvanda yaşadılıb.

Əvvəllər Naxçıvanda oğul, qız toyu edən ailələr toydan qabaq "toy çörəyi" bişirmək üçün hazırlıq görər, toy çörəyi yapılarkən qonşuları və qohumları "əppək üstə", "təndir başına" dəvət edərdilər. Gələnlər pul, hədiyyələr gətirərdilər. Kömək üçün gələnlər də qonum-qonşu da, qonaqlar da təndir başında bir loxma toy çörəyi yeyərdi. Sonra toy üçün yapılan çörək dəstələnər və sərin bir yerə yığılardı. Ev sahibi "əppək üstə" gətirilmiş pul və hədiyyələrin müəyyən hissəsini çörəkyapanlara verərdi. Toy çörəyi ən az iki tay, yəni yüz kiloqram undan yapılardı. Toydan bir gün qabaq köməyə gələnlərin arasından ən təcrübəliləri seçilər və lavaşı sulamaq onlara tapşırılardı. Çünki lavaşı isladanda diqqətli olmaq, suyu lazım olan qədər vurmaq lazımdır. Çörəyin toyda lazım olan qədərini istifadə edərdilər, qalanı isə xüsusi hazırlanmış çörək sandıqlarında quru şəkildə saxlanılardı.

Qış fəslinin çox sərt keçdiyi qədim diyarda ailələrin qış tədarükü arasında çörəkyapma adəti də mövcud olub. Dürrü nənə bu adətdən də söhbət açır: "Qış fəsli gəlməzdən əvvəl, təxminən, noyabr ayında da hamılıqla toplanar, növbə ilə qonşu, qohum bir-birinə kömək edər qışa lavaş yapılardı. Lavaşın xəmiri yoğrulanda ailə üzvlərinin sayı nəzərə alınardı. Digər çörəklərdən fərqli olaraq quru lavaşı aylarla saxlamaq olur və istənilən vaxt ondan lazım olan qədər sulayıb istifadə edirlər".



Naxçıvan Azərbaycanın ən qədim yaşayış yerlərindən biri olmaqla yanaşı, qədim adət və ənənələrimizin də yaşadıldığı regiondur. Ölkəmizin hər yerində təndir sənətkarlığı və çörəkbişirmə adəti mövcud olsa da, burada fərqli çörək növləri və təndir sənətkarlığı mövcuddur. Bu mənada, "Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə" adlı milli nominasiya faylının UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi qərarı Naxçıvan lavaşını sevənləri də sevindirdi. Çünki düşmən ölkə illərdir, Naxçıvan lavaşını mənimsəməyə çalışırdı.



2-7 dekabr tarixlərdə Paraqvayın paytaxtı Asunson şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 19-cu sessiyasında qəbul edilən bu qərar ermənilərə bir mesaj oldu.

✍ **Ramiyə ƏKBƏROVA**

## BMT-nin Uşaq Fondunun nümayəndələri Naxçıvanda bir sıra xəstəxanalarda yoxlamalar aparıblar



BMT-nin Uşaq Fondu (UNICEF) nümayəndələri Naxçıvanda immunizasiya proqramlarının icra səviyyəsini qiymətləndirmək məqsədilə yoxlamalar aparıblar. Bu proseslər Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyevanın iştirakı ilə həyata keçirilib.

Yoxlamalar zamanı Naxçıvanın müxtəlif bölgələrində, o cümlədən Naxçıvan şəhərində, Babək, Şahbuz, Ordubad, Culfa, Şərur, Sədərək və Kəngərli rayonlarında immunizasiya proqramlarının icrası araşdırılıb.

Bu yoxlamaların əsas məqsədi immunizasiya tədbirlərinin düzgün və vaxtında yerinə yetirilməsini, peyvəndlə bağlı məlumatların dəqiqliyini və əhalinin bu sahədəki maarifləndirilməsi səviyyəsini qiymətləndirmək olub. UNICEF nümayəndələrinin apardığı yoxlamalar, bölgələrdə uşaq sağlamlığının qorunmasına yönəlmiş proqramların effektivliyini təmin etmək məqsədini daşıyıb.

## Naxçıvan karateçiləri mükafatçılar sırasında

Bakı şəhərində karate üzrə uşaq, yeniyetmə və gənclər arasında 29-cu ölkə birinciliyi, böyüklər və parakarateçilər arasında 32-ci ölkə çempionatının açılış mərasimi keçirilib. Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Mərkəzində təşkil olunan yarışda 50 klub və müxtəlif regionları təmsil edən idmançılar iştirak ediblər.



Naxçıvan karateçiləri qələbə uğrunda mübarizədə 4 bürünc medal qazanmaqla mükafatçılar sırasına düşüblər. Təmsilçilərimizdən Vüsal Seyidov (60 kiloqram) 21 yaşadək idmançılar arasında, Yusif İsmayılov (67 kiloqram) eyni və 18+ yaş kateqoriyaları üzrə iki dəfə, Azər Məmmədli isə parakarate yarışında kata üzrə üçüncü yerə layiq görülüblər.

## "Şərq qapısı" qəzetinin şöbə müdiri "Fərdi jurnalist müsabiqəsi"nin qalibi olub

Medianın İnkişafı Agentliyi tərəfindən 2024-cü il 29 oktyabr tarixdə elan olunmuş "Fərdi jurnalist müsabiqəsi"nin nəticələri açıqlanıb.

"Şərq qapısı" qəzetinin şöbə müdiri Nail Əsgərov "Dünya ictimaiyyətinin Azərbaycana hörmət və etimadı – COP29" sərlövhəli yazısı ilə "Ən yaxşı ictimai-siyasi təhlil" nominasiyası üzrə müsabiqənin qalibi olub.



### İtmişdir

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Seyidov Mirheydər Cabbar oğlunun adına olan JN-1077A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Kırna kənd sakini Əsgərov Ramiz Məmməd oğlunun adına olan JN-144 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Darkəndində yaşamış Məmmədov Fikrət Bağır oğlunun adına olan JN-572 nömrəli, 10703028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Əsədov Nemət Əsəd oğlunun adına olan JN-0060 nömrəli, 10311058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi publik hüquqi şəxs tərəfindən Hüseynov Cəmşid Həsən oğlunun adına 2017-ci ildə verilmiş AS-001360 seriya nömrəli sertifikat itdiyindən etibarsız sayılır.

***

Quliyev Akif Fərzalı oğlunun adına olan Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Allahverdiyev Əhəd İsmayıl oğlunun adına olan 08.11.2018-ci il tarixli A-019618 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Hümbətov Hümbət Tahir oğlunun adına Naxçıvan şəhəri, 1-ci küçə, döngə 10, ev 3-ün 1713/3992 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kültəpə kənd sakini Nəcəfov Hüseyn Qurban oğlunun adına olan JN-0083 nömrəli 10308028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Əliyeva Leylan Mahmud qızının adına olan JN-1868A nömrəli, "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Badaşqan kəndində yaşamış Əsədov Oqtay Vaqif oğlunun adına olan AA-000494 və A-013019 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axura kənd sakini Musayeva İradə Şaban qızının adına olan 122A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və 313 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Teymurov Elşad Seyfulla oğlunun adına verilmiş JN-730A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kənd sakini Mustafayev Şahin Şahnəzər oğlunun adına olan 29.04.2015-ci il tarixli AA-002700 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nəzərabad kənd sakini Əliyev Ağabəy Mehman oğlunun adına olan JN-159A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Rüstəmov Fərhad Bayram oğlunun adına olan JN-1013A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.





## Yer təkindən istifadə ilə bağlı 21 yanvar 2025-ci il tarixdə saat $11^{00}$-da keçiriləcək hərracın elanı

Hərrac auksion formasında keçiriləcəkdir.
Şərur rayonu, "Arpaçay" qum-çınqıl yatağı

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10 faiz) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Arpaçay | LOT-1 | 200000$m^3$ | 4,0 ha | Qum-çınqıl | 10 ilədək | X-4377562.58 Y-502362.78 | 18000 | 1800 | 540 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Nəsrəddin Tusi küçəsi19, (Naxçıvan Biznes Mərkəzi MMC)

***Qeyd:*** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10 faiz miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər.
(Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42)

***Qeyd:*** Arpaçay qum-çınqıl yatağı üzrə 4 ha sahə ikinci dəfə 10 faiz endirimlə təkrar hərraca çıxarılır.

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət.
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (LOT üzrə) müəyyən edilir:

Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;

Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;

Ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.

4. "Vergiödəyicisinin vergi borcu barədə" arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: Hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN – şəhadətnaməsi və dövlət reyestrindən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN – şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 10 yanvar 2025-ci il saat $18^{00}$-a qədər Naxçıvan şəhəri,

Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına" uyğun ərizə (bundan sonra "ərizə") təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər LOT üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 (Əlaqələndirici şəxs: Əliyev Şövqi, telefon: (036) 545-34-85, 050-569-84-69 ) ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10 faiz miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10 faiz miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə, iddiaçı hərraca buraxılmır.




ŞƏRQ QAPISI

**Baş redaktor:**
SARA ƏZİMOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 363

*Nömrəyə məsul:* **Ramiyə Əkbərova, Bülbül Quliyeva, Türkanə Əsədova**
*Dizayner:* **Lətif Zeynalov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*